

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 20 sentyabr 2023-cü il, çərşənbə / № 170 (6514). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Ağ bayraq qaldırılmalı, silahlar təhvil verilməlidir!



## Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz!

### 19.09.2023. Saat 13.22 - antiterror tədbirləri başladı...

Bax səh. 2

## Vətən müharibəsinə 7 gün qalırdı...

### 20 sentyabr 2020

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

## Əks təqdirdə...

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Ermənistanın Azərbaycan ərazisində yaratdığı və hələ də dəstəklədiyi qanunsuz rejimin "danışıqlara başlamaq çağırışı" ilə əlaqədar bildirir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası reinteqrasiya məsələlərini müzakirə etmək üçün bir neçə dəfə ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrini dialoqa dəvət edib. Lakin onlar hər dəfə bundan imtina ediblər.**

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşə hazır olduğunu bildirir. Lakin antiterror tədbirlərinin dayandırılması üçün qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı, bütün silahlar təhvil verilməli, qanunsuz rejim özünü buraxmalıdır.**

**Əks təqdirdə, antiterror tədbirləri sona qədər davam etdiriləcək.**

## "Əsrin müqaviləsi" ilə başlayan uğurlu yol...

Bax səh. 4



## Türkiyə bu gün də Azərbaycanın yanındadır

Bax səh. 3

## Mərkəzi Asiyada Azərbaycan imperativi

Sentyabrın 14-də, Tacikistanın paytaxtı Düşənbədə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının V Məşvərət Görüşünə beynəlxalq və regional KİV-lər, o cümlədən, Rusiya mediası da xüsusi yer ayırıb. Müxtəlif ölkələrə məxsus media platformaları əsas diqqəti Azərbaycan Prezidenti İlham Əliyevin bu toplantıda fəxri qonaq qismində iştirakına yönəldiblər. Rusiya mediası dəyişən geosiyasi vəziyyətin fonunda Mərkəzi Asiya ölkələrinin Avropa ilə güclərini birləşdirmək...

Bax səh. 5



Bax səh. 4

## Çin ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

## Bu, xəyanətdir!

Məlum olduğu kimi, sentyabrın 19-da Azərbaycanda fəaliyyət göstərən 23 siyasi partiya Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə siyasi dəstək Bəyanatı qəbul ediblər. Bəyanatda vurğulanıb ki, sənədi imzalayan Azərbaycanın siyasi partiyaları üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan...

Bax səh. 3

## Aİ, Rusiya və ABŞ...

Sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yolu ilə eyni vaxtda Qarabağın erməni sakinlərinə humanitar yardımların aparılması beynəlxalq birlik tərəfindən də dəstəklənir. Bu, Azərbaycanın növbəti uğuru oldu. Belə ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel "X" platformasındakı paylaşımında Laçın və Ağdam yollarından Xankəndiyə humanitar yüklərin eyni vaxtda keçməsini alqışladığını bildirib. Ş.Mişel, həmçinin qeyd edib: "Artıq bu proses qaydaya salınmalıdır. Həmçinin Bakı və Qarabağın erməni sakinləri arasında hüquq və təhlükəsizlik məsələləri üzrə danışıqlara başlamaq vacibdir. Avropa İttifaqı bunu dəstəkləməyə hazırdır".

Rəsmi Moskva da hesab edir ki, Qarabağa humanitar yardımların daşınması üçün Laçın və Ağdam marşrutlarının paralel olaraq açılması Bakı və Qarabağın erməniəsilli sakinləri ilə dialoqun başlanmasına, habelə üçtərəfli razılaşmaların bütün kompleksinin həyata keçirilməsi üzrə ritmik işin bərpasına şərait yaradacaq. Bu barədə Xankəndiyə ...

Bax səh. 3

## Maaş və pensiyalar artırılır

Azərbaycanda sosial islahatların həyata keçirilməsi davamlı hal alıb. 2018-2023-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmaqla, bu islahatlar üzrə əlavə olaraq illik 6,8 milyard manat vəsait yönəldilib. Aparılan islahatlar çərçivəsində insanların gəlir imkanlarının artırılması xətti də mühüm yer tutur. Xüsusilə də respublikamızda əməkhaqlarının və pensiyaların artırılması davamlı olaraq diqqət mərkəzində saxlanılır.

**Əməkhaqlarının davamlı artımları**

Respublikamızda əməkhaqlarının artırılması davamlı bir ənənəyə çevrilib. Son beş ildə ölkəmizdə minimum aylıq əməkhaqqı 2,7 dəfə artırıləb. Orta aylıq əməkhaqqında 65,3 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib.

Əməkhaqlarının artırılması ənənəsi 2023-cü ildə də davam...

Bax səh. 5

## Ümumbəşəri "bəla"...

Dünya əhalisi koronavirusdan xilas olduğunu zənn edirdi. Ancaq xəstəlik yeni ştammları ilə özünü yenidən göstərməyə başlayıb. Təzəcə rahatlamışdıq ki, payızqış mövsümünün gəlişi ilə "bəşəri bəla" olan koronavirus yeni ştammı ilə bir daha özünü gündəmə gətirdi: Onun "Eg.5.1", "Eris" və "BA.2.86" adlı yeni ştammları aşkarlanıb.

Pandemiya keçmişdə qalmış kimi görünsə də, reallıq budur ki, son mutasiyaya uğramış ştammlar səbəbindən yoluxma halları yenidən artmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının ( ÜST) məlumatına görə, son zamanlar dünya üzrə COVİD-19-a yoluxanların sayı 38 % artıb. Belə ki, Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda yoluxma sayında kəskin artım qeydə alınıb.

"Eris" ölümcül virus...

Bax səh. 5

## Meteohəssas insanların diqqətinə...

Günəşdə baş verən partlayışlar səbəbindən Yerin maqnit sahəsində pozuntular əmələ gəlir. Məhz bu pozuntular nəticəsində maqnit qasırğası baş verir. Bu cür dalğalanmalar rabitə sistemlərinin işinə, eləcə də insan sağlamlığına mənfi təsir göstərə bilər.

Son günlər maqnit qasırğasının olacağı ilə bağlı xəbərlər yayılmaqdadır. Hətta bununla əlaqədar əhaliyə xəbərdarlıqlar da edilir. Belə günlərdə insanların təcili yardım və nevropatoloqlara müraciəti və zəngləri də artır. Maqnit qasırğası nəticəsində yolda və nəqliyyatda insanların ayaq üstündə yuxulaması, əzginlik, bədənə istilik gəlməsi, əsəbilik müşahidə edilir. Psixoloji baxımdan zəif...

Bax səh. 7



## İsveç cavab gözləyir...



## Gürcüstanda nə baş verir?

Bax səh. 6

# Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz!

**2020-ci il Vətən müharibəsindən sonra əldə olunan qələbə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə yanaşı, regionda sülhün və təhlükəsizliyin təmini baxımından da böyük əhəmiyyətə malik oldu. Təəssüfləndirici haldır ki, noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın müddəalarına, üzərinə götürdüyü öhdəliklərə riayət etməyən Ermənistan Azərbaycan ərazilərindən silahlı birliklərini çıxarmayıb. Bu silahlı qruplaşmalar isə zaman-zaman Azərbaycan Ordusuna, hətta dinc insanlara qarşı hərbi təxribatlar törədir, silahlı qarşıdurmalar yaradır, mina təhdidi formalaşdırır. Xüsusi qeyd edilməlidir ki, son aylarda bu kimi təxribatların miqyası daha da genişlənib. Silahlıların səngər qazması, son günlərdə texnika toplaması da gözdən yayınmır. Hətta Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən növbəti dəfə radiomaneələr tətbiq edilib. Məsələn, yayılan rəsmi məlumata görə, sentyabrın 18-i Tiflis-Bakı marşrutu üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarının E-190 tipli sərnişin təyyarəsinə saat 20:28-dən 20:34-dək radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranıb.**

## 19.09.2023. Saat 13.22 - antiterror tədbirləri başladı...



### Təxribatlar səngimirdi...

Sentyabrın 19-na keçən gecə isə Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonunun ərazisindən keçən 58-ci kilometrliyində sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minanın partlaması, törədilən terror aktı nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 43 saylı idarəsinin əməkdaşları Quliyev Fərhad Hüseynağa oğlu və Sadıxov Samir Sabiroviç həyatını itirib. Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Eyni gündə içində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "Kamaz" markalı nəqliyyat vasitəsi Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlayıb. Törədilmiş terror aktı nəticəsində DİN-in əməkdaşları olan 05.02.1994-cü il təvəllüdlü Camalzadə Asim Knyaz oğlu, 08.07.1987-ci təvəllüdlü Şirinov Ramil Arif oğlu, 12.07.1991-ci il təvəllüdlü Mahmudov Seymur Elsevər oğlu və 21.07.1998-ci il təvəllüdlü Zamanov Xəzər Azər oğlu hadisə yerində həlak olublar. Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Sentyabrın 19-u, həmçinin Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Müdafiə Nazirliyinin məlumatına görə, nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb. Hərbi qulluqçularımıza dərhal ilkin tibbi yardım göstərilib.



Baş verən təxribatlar isə haqlı olaraq Azərbaycan tərəfindən etirazla qarşılanıb. Azərbaycan Xarici İşlər Nazirliyi Xocavənddə mina terroru nəticəsində mülki şəxslərin və Daxili İşlər Nazirliyinin əməkdaşlarının həlak olması barədə yaydığı açıqlamada bildirib ki, bölgədə sülh və təhlükəsizliyin təmin edilməsi üçün Ermənistanın və onun yaratdığı qondarma rejimin hərbi təxribatları və törətdiyi terror aktları qətiyyətlə pislənməli və onların qarşısı alınmalıdır. Qeyd olunub ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyə qədər, ümumilikdə, mina qurbanlarının sayı 314 nəfərə çatıb, onlardan 61 nəfər həlak olub. "Xocavənd rayonu ərazisində baş verən mina partlayışı bir daha göstərir ki, üçtərəfli Bəyanatın 4-cü bəndini kobudcasına pozaraq Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini hələ də çıxarmayan, hərbi fəaliyyəti və minaların yerləşdirməsini davam etdirən Ermənistanın və onun yaratdığı qondarma rejimin əsas məqsədi bölgədə hərbi gərginliyi artırmaq, terrorçuluqla məşğul olmaqdır. Bununla yanaşı, bu təxribatların məqsədi post-münaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır", - XİN-dən qeyd olunub.




### Qondarma rejimin əsas məqsədi bölgədə hərbi gərginliyi artırmaq, terrorçuluqla məşğul olmaqdır

Təxribatlarla bağlı Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda isə törədilən terror aktı kəskin şəkildə pislənilib. Bildirilib ki, terror aktlarının törədilməsi üçün azad edilmiş ərazilərimizdə çəkilən yolların seçilməsi heç də təsadüfi deyildir. Bu, əvvəlcədən planlaşdırılmış, azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin, keçmiş məcburi köçkünlərin qayıdışının qarşısının alınmasına, qorxu və ruh düşkünlüyünün yaradılmasına hesablanmış xain bir addımdır: "Bu qanlı cinayəti, Ermənistanın Azərbaycana qarşı təcavüzünü mina terroru formasında davam etdirməsi kimi dəyərləndiririk. Terror aktları bir daha göstərir ki, Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazisindən çıxarılmalı, qanunsuz erməni silahlı dəstələri tərksilah edilməli və xunta rejimi ləğv edilməlidir".

### Başladı...

Dünən Azərbaycan Müdafiə Nazirliyi bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması ilə bağlı məlumat yayıb. Bildirilib ki, son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olmuşdur. "Bu xüsusda, döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən aparılan müşahidələrlə təsbit edilmişdir. Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olmuşdur. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanmışdır. Bu kimi faktlar Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasətinin davamıdır", -deyə qeyd edilən bəyanatda o da vurğulanıb ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bayan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir: "üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Bir daha bildiririk ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır. Keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb".

### Legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır

Müdafiə Nazirliyinin yaydığı başqa bir məlumatda isə bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri çərçivəsində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılır. Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq. Bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilib. Eyni zamanda, səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılır: "Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunacaq. Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb".

Yeri gəlmişkən, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması ilə əlaqədar sentyabrın 19-da Müdafiə Nazirliyində brifinq keçirib. Brifinqdə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov media nümayəndələrinə vəziyyət barədə məlumat verib.

Eyni zamanda, Dövlət Təhlükəsizliyi Xidməti (DTX), Daxili İşlər Nazirliyi (DİN), Dövlət Sərhəd Xidməti (DSX) və Baş Prokurorluq Qarabağdakı lokal xarakterli antiterror tədbirləri ilə bağlı brifinq keçirib.

### Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri məhv edilib

Qeyd edək ki, dünən gün ərzində ordumuzun həyata keçirdiyi lokal xarakterdli antiterror tədbirləri ilə bağlı görüntülər yayılıb, məlumatlar verilib. Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri bölmələrimizin sərrast atəşi nəticəsində məhv edilib. Eyni zamanda, Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus növbəti uzunmüddətli atəş nöqtələrinin və hərbi təyinatlı obyektlərin bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilməsinin də görüntülərini yayıb.

"Caliber"in yaydığı görüntülərdə isə Azərbaycanın Qarabağ bölgəsində Kərkicahan-Xəlfəli yolunda (Ağdərə) Ermənistan Silahlı Qüvvələrinin postunun dağıdılması öz əksini tapıb. Bundan başqa, "Caliber" Ermənistan Silahlı Qüvvələrinin Aşağı Otaraq kəndində (Ağdərə istiqaməti) elektron döyüş məntəqəsinin minaatanının məhv edilməsi, Ermənistan Silahlı Qüvvələrinin Xankəndi şəhərindəki elektron döyüş alayının hədəfli zərbə nəticəsində məhv edilməsi, Ermənistan Silahlı Qüvvələrinə məxsus "Tor" hava hücumundan müdafiə sisteminin Xankəndində məhv edilməsinin də görüntülərini yayıb.



### Xunta rejimi ləğv edilməlidir

Azərbaycan XİN Qarabağdakı qanunsuz erməni silahlılarının təxribatlarına qarşı cavab tədbirləri barədə bəyanat yayıb. Bəyanatda bildirilib ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıb. Bununla yanaşı, Ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb: "Erməni silahlı qüvvələrinin bu kimi təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib. Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Görülən tədbirlərin hədəfi müstəsna olaraq qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturdur. Heç bir halda Azərbaycan tərəfi mülki əhalini hədəf almır. Bu xüsusda, erməni mülki əhalinin hərbi hədəflərdən uzaq durması zəruridir".

Məlumatda vurğulanıb ki, Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

Qərbi Azərbaycan İcmasının bəyanatında isə bildirilib ki, Ermənistan hökuməti beynəlxalq hüquqa və öhdəliklərinə əməl etməli, öz ordusunun qalıqlarını Azərbaycanın suveren ərazisindən çıxarmalı, qanunsuz erməni silahlı dəstələri tərksilah edilməli və xunta rejimi ləğv edilməlidir. Qeyd olunub ki, Ermənistan silahlı qüvvələrinin Xocavənd rayonunda minalardan istifadə etməklə törətdiyi diversiya hücumları nəticəsində dördü polis, ikisi mülki şəxs olmaqla altı nəfər azərbaycanlını qətlə yetirib. Erməni hərbi birləşmələri bundan əlavə, Azərbaycan ordusunun mövqelərini atəşə tutması nəticəsində iki nəfər hərbi qulluqçu yaralanıb: "Bütün bunlar Ermənistanın Azərbaycan ərazilərindən qoşunlarını tam çıxarmaq öhdəliyini yerinə yetirməkdən imtina etməsi, separatizmi dəstəkləməsi, Azərbaycanın reinteqrasiya səylərini sabotaj etməsi və Azərbaycana qarşı beynəlxalq miqyasda kütləvi qarayaxma kampaniyası aparması kontekstində baş verir. Açıq görünür ki, Ermənistanın hədəfi yenidən güc tətbiq etməklə Azərbaycanın ərazilərini nəzarət altında saxlamaq və ərazi iddiasını davam etdirməkdir. Azərbaycan tərəfinin beynəlxalq hüququn norma və prinsipləri əsasında atdığı ardıcıl addımlar Ermənistana sülhü və əməkdaşlığı seçmək imkanı yaratmışdı. Təəssüf ki, Ermənistan irqçi mono-etnik dövlətçilik və ərazi ekspansiyası ideologiyasından əl çəkməmiş və bir sıra bədnam havadarlarının fitnəsi ilə növbəti dəfə təxribat yolunu seçmişdir. Bütün bunları nəzərə alaraq, Azərbaycan Ordusu Qarabağda Azərbaycanın konstitusiya quruluşunun bərpası uğrunda lokal xarakterli antiterror tədbirlərinə başlayıb. Ermənistan hökuməti beynəlxalq hüquqa və öhdəliklərinə əməl etməli, öz ordusunun qalıqlarını Azərbaycanın suveren ərazisindən çıxarmalı, qanunsuz erməni silahlı dəstələri tərksilah edilməli və xunta rejimi ləğv edilməlidir".

### Görülən tədbirlər...

**Azərbaycanın apardığı lokal antiterror tədbirləri ölkəmizin beynəlxalq hüquqa söykənərək atdığı bir addımdır. Bu mənada, hər hansı bir siyasi təşkilat və ya dövlət Azərbaycanın öz daxilində apardığı bu antiterror tədirlərinə qarışa bilməz. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Vətən müharibəsindən ötən dövr ərzində dövlətimiz bütün sferalarda sülhə və əməkdaşlığa sadiqlik nümayiş etdirib. Amma Ermənistanın apardığı təxribatçı fəaliyyət ölkəmizin bunun qarşısını almaq üçün hüquqi addımlar atmağa sövq etdi.**

# Türkiyə bu gün də Azərbaycanın yanındadır



2020-ci ildə baş vermiş Vətən müharibəsi dövründə qardaş Türkiyənin ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstək olduqca mühüm əhəmiyyət kəsb edib. Bu, ilk növbədə bir qardaşlıq nümunəsinə çevrilərək bütün dünya üçün örnək xarakter daşıdı. İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Azərbaycanın yanında olan Türkiyənin davranışı yeni geosiyasi vəziyyət baxımından olduqca vacib şərt idi - Prezident Ərdoğan bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Beynəlxalq tribunalarda, xarici dövlətlərdə azərbaycanlılarla çiyin-çiyinə dayanan Türk xalqı erməni yalanlarına, erməni böhtanına qarşı mübarizədə də birgə səylərini ortaya qoydu. Bu amil post-müharibə dövründə xüsusilə böyük vüsət qazandı. Azərbaycan Prezidenti İlham Əliyev qazanılan tarixi qələbəmizdə Türkiyənin rolunu daim yüksək qiymətləndirir. Eyni zamanda, işğaldan azad edilmiş bölgələrə edilən birgə səfərlər, verilən bəyanatlar, imzalanan sənədlər bu birliyi, qardaşlığı daha da ülviləşdirir.

**Telefon danışıqları...**

Yeri gəlmişkən, dünən Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler arasında telefon danışığı olub. General-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə həmkarını məlumatlandırıb. Türkiyənin milli müdafiə naziri Yaşar Güler isə Türkiyənin hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu bildirib: "Türkiyə hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanındadır".

Sentyabrın 19-da müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak arasında da telefon danışığı olub. Telefon danışığı zamanı Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə müzakirələr aparılıb. Qardaş ölkə Türkiyənin, hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğu xüsusi vurğulanıb.

**Şuşa Bəyannaməsi - regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəd**

Ümumiyyətlə, son illərdə Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmini üçün bir sıra birgə addımları ilə seçilən, yeni siyasi situasiyanın formalaşdırılmasında əhəmiyyətli rola malik olan Türkiyə - Azərbaycan birliyi region üçün yeni perspektivlər formalaşdırır. Bununla bağlı hətta beynəlxalq ekspertlərin belə rəyi yekdildir - hər kəs Azərbaycan ilə Türkiyə arasındakı hərbi müttəfiqliyin bölgəyə sabitlik, inkişaf və təhlükəsizlik gətirəcəyinə əmindir. 2021-ci ilin iyununda imzalanan Şuşa Bəyannaməsi postmünaqişə dövründə hərbi-siyasi təhlükəsizliyə və müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsinə hədəfləndi. Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəd, həmçinin qardaş ölkələrin strateji tərəfdaşlığının zirvəsi sayılır. Bu kimi müqavilələr iki ölkənin yeni hərbi-siyasi təhlükəsizlik çətiri formalaşdırması - yeni milli və regional təhlükəsizlik mexanizmi yaratması formuluna çevrilir. Eyni zamanda, Bəyannamə bütün sferalarda geosiyasi təhlükəsizliyi təmin edir - hərbi təhdidlərə qarşı birgə mübarizə platforması formalaşdırır. İki ölkənin sıx əməkdaşlığı və birgə təşəbbüsləri regionda çoxşaxəli qarşılıqlı faydalı işbirliyinin dərinləşməsində, inteqrasiyanın sürətlənməsində vacib rol oynayır. Bütövlükdə, bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı amil kimi çıxış edir. Beləliklə, 2021-ci ilin və son 100 ilin ən mühüm hadisələrindən olan Şuşa Bəyannaməsinin icrası regionun geostrateji arxitekturasının daha da gücləndiriməsinə yol açır.

***P.İSMAYILOV***

# Bu, xəyanətdir!

Məlum olduğu kimi, sentyabrın 19-da Azərbaycanda fəaliyyət göstərən 23 siyasi partiya Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə siyasi dəstək Bəyanatı qəbul ediblər. Bəyanatda vurğulanıb ki, sənədi imzalayan Azərbaycanın siyasi partiyaları üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycanın müzəffər Ordusunun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə dəstəyini ifadə edir, qəhrəman Ordumuza Zəfər arzulayır: "Azərbaycanın siyasi partiyaları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti və verdiyi hərbi əmri dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı Vətən müharibəsində olduğu kimi, bu şərəfli işdə də həmrəyliyə, möhtərəm Prezidentimizi və Ali Baş Komandanımızı dəstəkləməyə çağırırıq".

Vurğulanmalıdır ki, siyasi partiyaların birgə bəyanatı siyasi həmrəyliyin nümunəsi olmaqla yanaşı, Azərbaycanda yaşanan siyasi birliyin təcəssümünə çevrildi. Bu fakt bir daha onu göstərir ki, 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, bu gün də Ermənistanın hərbi təxribatlarına etiraz və dövlətin haqq işi ölkənin siyasi palitrasını birləşdirir. Təəssüfləndirici haldır ki, hər zaman öz şəxsi maraqlarını ölkənin, xalqın mənafeyindən üstün tutan bəzi partiyalar Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə dəstək Bəyanatına qoşulmadı. Hər zaman olduğu kimi, milli maraqlardan uzaq mövqe sərgiləyən antimilli ünsürlər - konkret olaraq AXCP, Müsavat Partiyası və REAL Partiyası Azərbaycanın haqlı və ədalətli mövqeyinə zidd yanaşma sərgiləyərək fərqli "yol tutdular".

Məsələ ilə bağlı fikirlərini bölüşən Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, bu bəyanat siyasi mənsubiyyətindən, daşıdığı ideologiyadan və fərqli siyasi baxışlarından asılı olmayaraq partiyaların üzvlərinin, bütövlükdə, cəmiyyətimizin milli birliyinin, həmrəyliyinin ifadəsi və nümayişidir. Ölkəmizdə Ermənistanın təxribatlarına qarşı antiterror tədbirləri görüldüyü bir zamanda siyasi qüvvələrin dövlətin, Prezidentin ətrafında birləşməsi, xalqa çağırış etməsi olduqca mühüm bir amildir: "Siyasi partiyaların mütləq əksəriyyəti 44 günlük Vətən müharibəsi dövründə də birlik bəyanatı imzalayaraq Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini bəyan etmişdi. Bu bəyanat da Azərbaycanın suverenliyinin qorunması, Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı birlik nümayişidir. Təəssüf ki, bəzi partiyalar bu bəyanata qoşulmadılar. Bu bir daha onu göstərir ki, həmin siyasi partiyalar hələ 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı siyasi partiyaların Azərbaycan dövlətinə dəstək bəyanatlarına qoşulmayaraq milli həmrəyliyə qarşı çıxan bəzi ünsürlər satqın, xəyanətkar mövqelərini davam etdirərək Ermənistanın havadarlarının diktəsi ilə hərəkət edirlər. Bu fakt onların riyakar və simasız olduqlarını, siyasi fəaliyyətlərinin xəyanətkarlıqdan ibarət olduqlarını təsdiqləyir. Xalqımız baş verənləri, onların mövqeyini, davranışını görür və qiymətləndirir. Xalqına, dövlətinə xəyanət yolu tutanlar heç bir zaman uğur qazana bilməzlər".



## Fəzail Ağamalı: Bu fakt onların siyasi fəaliyyətlərinin xəyanətkarlıqdan ibarət olduqlarını təsdiqləyir

***SADİQ***

***Nardar BAYRAMLI***

# Aİ, Rusiya və ABŞ...

## Azərbaycanın doğru yolda olduğunu etiraf etdi








Sentyabrın 18-də Ağdam-Xankəndi və Laçın-Xankəndi yolu ilə eyni vaxtda Qarabağın erməni sakinlərinə humanitar yardımların aparılması beynəlxalq birlik tərəfindən də dəstəklənir. Bu, Azərbaycanın növbəti uğuru oldu. Belə ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel "X" platformasındakı paylaşımında Laçın və Ağdam yollarından Xankəndiyə humanitar yüklərin eyni vaxtda keçməsini alqışladığını bildirib. Ş.Mişel, həmçinin qeyd edib: "Artıq bu proses qaydaya salınmalıdır. Həmçinin Bakı və Qarabağın erməni sakinləri arasında hüquq və təhlükəsizlik məsələləri üzrə danışıqlara başlamaq vacibdir. Avropa İttifaqı bunu dəstəkləməyə hazırdır".

Rəsmi Moskva da hesab edir ki, Qarabağa humanitar yardımların daşınması üçün Laçın və Ağdam marşrutlarının paralel olaraq açılması Bakı və Qarabağın erməniəsilli sakinləri ilə dialoqun başlanmasına, habelə üçtərəfli razılaşmaların bütün kompleksinin həyata keçirilməsi üzrə ritmik işin bərpasına şərait yaradacaq. Bu barədə Xankəndiyə humanitar yardımın çatdırılmasını şərh edən Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova xatırladıb ki, sentyabrın 18-də Rusiya sülhməramlı kontingentinin və RF XİN-in iştirakı ilə və Beynəlxalq Qırmızı Xaç Komitəsinin səyləri sayəsində Laçın və Ağdam marşrutları üzrə regiona ərzaq və dərman preparatları çatdırılıb. M.Zaxarova qeyd edib: "Dinc əhalinin maraqlarına uyğun olaraq, humanitar yüklərin maneəsiz və müntəzəm tədarükünün davam etməsini gözləyirik". Onun sözlərinə görə, Moskva hesab edir ki, Qarabağda humanitar vəziyyətin yaxşılaşması Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına dair 2020-2022-ci illərdə liderlər tərəfindən yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmaların bütün kompleksinin həyata keçirilməsi üzrə işlərin yenidən başlanmasına şərait yaradacaq. Rusiya XİN-in rəsmi nümayəndəsi əlavə edib ki, Moskva "bütövlükdə, Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsində maraqlıdır".

ABŞ dövlət katibi Antoni Blinken də qeyd edib ki, rəsmi Vaşinqton humanitar yardımın Laçın və Ağdam yolları ilə Qarabağa eyni vaxtda çatdırılmasını alqışlayır: "Bu yaxınlarda Prezident İlham Əliyevlə müzakirə etdiyimiz yanaşma öz nəticəsini verdi. Bu tədarüklər irəliyə doğru atılmış mühüm addımdır və biz tərəfləri birbaşa danışıqlar aparmağa və region əhalisinə humanitar yardım axınının artırılmasına diqqət yetirməyə təşviq edirik".

Dövlət katibi bildirib ki, Birləşmiş Ştatlar çoxdankı problemlərin həlli, layiqli və davamlı sülhə nail olmaq üçün Ermənistan və Azərbaycanın səylərini dəstəkləməyə hazırdır.

Xatırladaq ki, sentyabrın 18-də səhər saatlarında Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) avtomobilləri Ağdam-Xankəndi yolu ilə Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli sakinlərə ərzaq və tibbi ləvazimatlar aparıb. Artıq bu, Ağdam-Xankəndi yolunun açılması deməkdir. Bununla da, Ermənistanın və Qarabağ separatçılarının "humanitar böhran" və "aclıq" şousu iflasa uğradı. Xeyli vaxt idi ki, Azərbaycanın beynəlxalq normalara və suveren hüququna uyğun olaraq Laçın yolu ilə bağlı addımlarını siyasi şouya çevirmək istəyən Ermənistan və onun havadarları guya ölkəmizin Qarabağı "blokadaya" alması barədə beynəlxalq miqyasda qərəzli kampaniya aparırdı. Lakin Laçın yoluna paralel olaraq Ağdam-Xankəndi yolunun istifadəsini təklif edən dövlətimiz bu məsələdə prinsipial mövqeyini sonadək qorudu və bu məqsədə nail oldu.

Məlumdur ki, Azərbaycan və Ermənistan tərəfinin ABŞ-da keçirilmiş son görüşdə sentyabrın 1-dən paralel şəkildə yolların işə salınacağı razılaşdırılmışdı. Lakın Qarabağdakı separatçı rejim bu razılaşmanı pozur, Ermənistan, onların xaricdəki havadarları, lobbiləri razılaşmanın baş tutmaması üçün əllərindən gələni edirdilər. ABŞ, Fransa kimi ölkələr isə razılaşmanın tələblərinin yerinə yetirilməsinə səy göstərmək əvəzinə, Azərbaycana qarşı təzyiqlərə əl atır, müxtəlif səviyyələrdə yersiz bəyanatlar səsləndirir, yalnız Laçın yolunun açılmasını tələb kimi irəli sürürdülər. Lakin Azərbaycan özünü haqlı mövqeyindən geri çəkilməyərək, hər iki marşrutun paralel olaraq işləməsi təklifində israr etdi. Nəticə isə göz önündədir.

Dövlətimiz nümayiş etdirdi ki, humanitar məsələlərdə daim üzərinə düşəni edir, Qarabağda yaşayan erməni əsilli vətəndaşlarına münasibətdə də heç bir ayrı-seçkiliyə yol vermir. Separatçı qalıqlarının, eləcə də Ermənistan və onun dəstəkçilərinin humanitar məsələni siyasiləşdirib, bundan Azərbaycan təzyiq kimi istifadə etmək niyyəti isə perspektivsizdir. Avropa İttifaqı, Rusiya və ABŞ kimi beynəlxalq aktorların Ağdam-Xankəndi yolunun açılmasını alqışlamaları Azərbaycanın haqlı yolda olmasının etirafıdır.



# Azərbaycanın keçirdiyi lokal antiterror tədbirlərinə siyasi partiyaların dəstək BƏYANATI

Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə siyasi partiyalar dəstək Bəyanatı qəbul ediblər.

Bəyanatda deyilir:

"44 günlük Vətən müharibəsində qəhrəman ordumuzun qazandığı Şanlı Zəfərdən sonra Ermənistanın imzaladığı kapitulyasiya aktında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yönəlik təhdidlər qalmaqda davam etmişdir. Azərbaycan dövlətinin Ermənistana doğru uzanmış sülh əli hər dəfə geri qaytarılmış və bunun qarşılığında Ermənistanın, onun dünyadakı məkrli havadarlarının Azərbaycana qarşı qarayaxma kampaniyası baş qaldırmışdır. Azərbaycan dövlətinin dəfələrlə Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, təxirəsalınmadan sülh müqaviləsinin imzalanması müraciətləri Ermənistan tərəfindən müxtəlif bəhanələrlə rədd edilmişdir.

Üçtərəfli Bəyanatın imzalanmasından keçən 3 il müddətində Azərbaycanın işğaldan azad edilən torpaqlarda həyata keçirdiyi bərpa və quruculuq işləri ölkəmizə həm böyük maliyyə hesabına, həm də ən dəhşətlisi - vətəndaşlarımızı itirmək bahasına başa gəlmişdir. Bu müddət ərzində 314 vətəndaşımız mina terrorundan zərər çəkmiş, 61 vətəndaşımız mina terrorunun, onlarla hərbi qulluqçumuz isə erməni qəsbkarlarının açdığı xain atəşin qurbanı olmuşdur.

Bütün bunlara dözümlü yanaşan Azərbaycan Laçın-Xankəndi, sonradan isə Ağdam-Xankəndi istiqamətində hərəkəti təmin etmiş, Azərbaycanın bölgədə yaşayan erməni sakinlərinin təhlükəsizliyi üçün daim xoşməramlı niyyətini ifadə etmişdir. Həmçinin davamlı olaraq həmin bölgədə xidmət aparan Azərbaycan Ordusu tərəfindən erməni sakinlərə baş verə biləcək hərbi əməliyyatlar zamanı onların təhlükəsizliklərinin Azərbaycan tərəfindən təmin olunması ilə bağlı məlumatlar verilmişdir.

Son günlər Qarabağ bölgəsində hələ də qalmaqda davam edən erməni silahlı birləşmələrinin ordumuza və işğaldan azad edilən Şuşada, Zəngilanda, Laçında, Kəlbəcərdə yaşayan və fəaliyyət göstərən Azərbaycan vətəndaşlarına qarşı intensiv şəkildə həyata keçirdiyi təxribatlar günahsız vətəndaşlarımızın həyatına son qoymuşdur. Müxtəlif dövlət qurumlarının işğaldan azad edilən Qarabağ torpaqlarında çalışan işçilərinin, həmçinin onların təhlükəsizliyini qoruyan qəhrəman polislərimizin erməni silahlı birləşmələrinin mina terroruna məruz qalması insanlarımızın böyük hiddətinə səbəb olmuşdur. Belə bir məqamda erməni silahlı birləşmələrinin Ordumuzla üzbəüz mövqelərinə əlavə qüvvələr və zirehli texnikalar cəlb etməsi isə onların məkrli niyyətinin daha böyük terror aktları törətmək olduğunu göstərməkdədir.

Biz, Azərbaycanın siyasi partiyaları üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycanın müzəffər ordusunun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə dəstəyimizi ifadə edir, qəhrəman Ordumuza Zəfər arzulayırıq!

Azərbaycanın siyasi partiyaları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti və verdiyi hərbi əmri dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı Vətən müharibəsində olduğu kimi bu şərəfli işdə də həmrəyliyə, Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı dəstəkləməyə çağırırıq.

**1. Yeni Azərbaycan Partiyası**
**2. Vətəndaş Həmrəyliyi Partiyası - sədr Sabir Rüstəmxanlı**
**3. "Ana Vətən" Partiyası - sədr Fəzail Ağamalı**
**4. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - sədr Qüdrət Həsənquliyev**
**5. Böyük Quruluş Partiyası - sədr Fazil Mustafa**
**6. Demokratik İslahatlar Partiyası - sədr Asim Mollazadə**
**7. Vəhdət Partiyası - sədr Tahir Kərimli**
**8. Azərbaycan Demokratik Maarifçilik Partiyası - sədr Elşən Musayev**
**9. Milli Cəbhə Partiyası - sədr Razi Nurullayev**
**10. Haqq Ədalət Partiyası - sədr Əli İnsanov**
**11. Azərbaycan Xalq Partiyası - sədr Pənah Hüseyn**
**12. Azərbaycan Demokrat Partiyası - sədr Sərdar Cəlaloğlu**
**13. Ədalət Partiyası - sədr İlyas İsmayılov**
**14. Azərbaycan Ümid Partiyası - sədr İqbal Ağazadə**
**15. Klassik Xalq Cəbhəsi Partiyası- sədr Mirmahmud Fəttayev**
**16. "Azərbaycan Milli İstiqlal" Partiyası - sədr Arzuxan Əlizadə**
**17. Müasir Müsavat Partiyası - sədr Hafiz Hacıyev**
**18. Milli Dirçəliş Hərəkatı Partiyası - sədr Fərəc Quliyev**
**19. "Böyük Azərbaycan" Partiyası - sədr Elşad Musayev**
**20. Ağ Partiyası - sədr Tural Abbaslı**
**21. Azad Vətən Partiyası - sədr Akif Nağı**
**22. Gələcək Azərbaycan Partiyası - sədr Ağasif Şakiroğlu**
**23. Yeni Zaman Partiyası - sədr Musa Ağayev"**

# “Əsrin müqaviləsi” ilə başlayan uğurlu yol...

Dünyada enerji resursları ilə zəngin olan ölkələrin sayı çoxdur. Ancaq bu resurslar heç də onların hamısına xoşbəxtlik və firəvanlıq gətirməyib. Bunun da əsas səbəbi enerji siyasətində yol verilən boşluqlarla əlaqədardır. Azərbaycan isə ortaya tamam fərqli nümunə qoyur. Ulu öndər Heydər Əliyevin işləyib hazırladığı yeni neft strategiyasının əsasında ölkəmizin və xalqımızın milli maraqları dayanır. Eyni zamanda, ölkəmizin reallaşdırdığı enerji siyasəti ədalət prinsipinə əsaslanır. Məhz bu iki məqam respublikamızın enerji siyasətində böyük uğurlar qazanmasını şərtləndirir. Bir tərəfdən neft gəlirləri ölkədə strateji önəm daşıyan layihələrin reallaşdırılmasına, insan kapitalının formalaşmasına, sosial rifahın yaxşılaşdırılmasına yönəldilir, digər tərəfdən də etibarlı tərəfdaş, məsuliyyətli və ləyaqətli dövlət kimi Azərbaycanın müsbət beynəlxalq imici möhkəmlənir.



## Ulu Öndərin səyləri ilə imzalanan “Əsrin müqaviləsi”

Bu gün Xəzər hövzəsində ölkəmizə böyük iqtisadi-siyasi dividendlər gətirən və təhlükəsizlik qarantı rolunda çıxış edən uğurlu enerji layihələrindən söhbət açarkən mütləq tarixə nəzər salmaq gərəkdir. Ölkəmizin şaxələndirilmiş uğurlu enerji siyasətinin əsası xalqımızın ümummilli lideri Heydər Əliyevin çox böyük səyləri hesabına imzalanan “Əsrin müqaviləsi” ilə qoyulub. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyev ölkəmizin uzunmüddətli inkişafına və rifahına hesablanan yeni neft strategiyasını hazırladı. Məhz Ümummilli Liderin vəziyyəti düzgün qiymətləndirməsi və çox böyük səyləri hesabına 1994-cü il sentyabrın 20-də Bakıda transmilli neft şirkətinin iştirakı ilə Xəzərdəki “Azəri-Çıraq-Günəşli” yatağının birgə işlənməsinə dair “Əsrin müqaviləsi” adını alan beynəlxalq kontrakt imzalandı. Bununla da Xəzər ölkəmizin hərtərəfli inkişafını şərtləndirən xoşməramlı beynəlxalq əməkdaşlıq mərkəzinə çevrildi.

“Əsrin müqaviləsi”nin imzalanması ilə neftçıxarma tariximizdə yeni səhifə açıldı. Kontraktın texniki parametrləri kifayət qədər genişdir. Dəyəri 7,4 milyard dollar olan “Əsrin müqaviləsi”ndə dünyanın 7 ölkəsini təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak edib. İlkin hesablamalara görə, “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsindən çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1,072 milyard ton həcmində müəyyən edilib. “Əsrin müqaviləsi” sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə daha 30-dan çox sazişin imzalanması üçün yol açdı.

Hazırda Azərbaycan neft bumunun ikinci fazasını yaşayır. Belə ki, bir çox şirkətlər ölkəmizdə yeni layihələrə qoşulurlar. 2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması ilə “Əsrin müqaviləsi”nin müddəti 2050-ci ilə qədər uzaldılıb. Yeni sazişin imzalanması ilə böyük ehtiyatlara malik “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənilməsində yeni mərhələ başlayıb. Bəhs olunan yeni Sazişdə də Azərbaycanın milli maraqları maksimum dərəcədə nəzərə alınıb. Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faiz qaldırılıb, razılaşmaya əsasən, tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəməyi öz öhdələrinə götürüblər.

## Şaxələndirilmiş nəql marşrutları

Azərbaycanın müasir çağırışlar və reallıqlar nəzərə alınmaqla hazırlanan yeni neft strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Marşrutların şaxələndirilməsi bu gün Azərbaycanın müstəqil enerji siyasəti həyata keçirməsini şərtləndirən çox mühüm amil qismində çıxış edir.

İndiyədək Azərbaycan güclü siyasi iradə nümayiş etdirərək bir neçə nəql marşrutunun yaradılmasına nail olub. 1990-cı illərin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bakı-Tbilisi-Ceyhanın istifadəyə verilməsi sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdilər. Eyni zamanda, yeni nəql marşrutundan faydalanan Azərbaycan öz ixracını əhəmiyyətli dərəcədə artırmağa nail oldu. Əlamətdar haldır ki, bu gün Bakı-Tbilisi-Ceyhandan digər ölkələr də faydalanırlar. Belə ki, Xəzərin şərq sahilində yerləşən digər ölkələr tərəfindən hasil edilən neft də artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Beləliklə, Azərbaycan bu gün etibarlı tranzit ölkə kimi qonşu dövlətlərə öz imkanlarını təqdim edir. Prezident İlham Əliyev qürur hissi ilə bildirib ki, Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır. 2007-ci ildə daha bir nəql marşrutu - Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Beləliklə, Azərbaycan ilk dəfə olaraq beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi.

Azərbaycanın enerji resurslarını istehlakçılara çatdıran daha bir mükəmməl nəql marşrutu Cənub Qaz Dəhlizidir. Təxminən 3500 kilometr məsafədə Xəzər sahillərindən Avropayadək uzanan bu nəql marşrutu 4 mühüm seqmentdən ibarətdir. Ölkəmizin təşəbbüsü və moderatorluğu ilə inşa edilən bu müasir nəql marşrutunun son seqmenti olan Trans Adriatik Boru Kəmərinin (TAP) tikintisi 2020-ci ilin son günlərində tamamlandı. Beləliklə də Azərbaycan “Şahdəniz - 2” mərhələsində, eləcə də digər yataqlarda hasil olunan mavi yanacağı Avropaya çatdırmaq üçün mükəmməl infrastruktura sahibləndi. Belə bir nəql marşrutuna malik olması ölkəmizin böyük üstünlüyüdür.




## Müstəqil enerji siyasətində yeni mərhələ

Azərbaycanın “Əsrin müqaviləsi” ilə uğurlu təməli qoyulan yeni neft strategiyasının növbəti mərhələsi Xəzərdəki zəngin qaz yataqlarının işlənməsini əhatə edir. “Əsrin müqaviləsi”ndə olduğu kimi, bu sahədə də xarici şirkətlərlə sıx əməkdaşlıq qurulub. Bu əməkdaşlığın nəticəsi olaraq hazırda Azərbaycan Avropanın mavi yanacağa tələbatının müəyyən hissəsini qarşılayan etibarlı mənbə ölkəsinə çevrilib.

Ötən il iulun 18-də ölkəmizlə Avropa İttifaqı arasında “Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin imzaladıqları sənədlə ölkəmizlə Aİ arasında enerji dialoqunun keyfiyyətcə yeni səviyyəyə yüksələcəyi fikrini qətiyyətlə ifadə edə bilərik. Həmin sənədi bütövlükdə enerji dialoqunun müxtəlif aspektlərini əhatə edən strateji yol xəritəsi kimi də dəyərləndirmək mümkündür. Memorandumda tərəflərin Xəzər sahillərindən “Köhnə qitə”yə qaz ixracının artırılması ilə bağlı niyyətləri də ifadə olunub.

Yuxarıda bəhs olunan sazişə uyğun olaraq respublikamız Avropaya qaz ixracını artırır. Rəsmi statistikaya əsasən, 2023-cü ilin altı ayında ölkədə 18,2 milyard kubmetr qaz hasil edilib ki, bu da ötən ilin eyni dövründəkindən 3,2 faiz çoxdur. 2023-cü ilin yanvar-iyun aylarında ölkə qaz ixracını 7,5 faiz artıraraq 12 milyard kubmetrə çatdırıb. Bu dövrdə Avropaya 5,7 milyard kubmetr Azərbaycan qazı ixrac olunub ki, bu da bütün ixracın 48 faizini təşkil edir. Türkiyəyə 5 milyard kubmetr (bütün ixracın 41 faizi), Gürcüstana isə 1,3 milyard kubmetr qaz (bütün ixracın 11 faizi) ixrac olunub.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycan qaz ixracını 18 faiz artıraraq 22,3 milyard kubmetrə çatdırıb. Bunun 11,4 milyard kubmetri Avropaya ixrac olunub. 2023-cü ildə Azərbaycandan qaz ixracı 24,5 milyard kubmetr həcmində nəzərdə tutulub. Bunun 12 milyard kubmetrə qədəri Avropaya nəql olunacaq. 2027-ci ilədək isə Avropa məkanına qaz ixracının həcminin iki dəfə artırılması hədəflənib ki, bu da tam realdır.

***Mübariz FEYİZLİ***

# Çin ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə edilib







Yeni Azərbaycan Partiyası (YAP) nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində Çindao Şəhər Komitəsinin Daimi üzvü, Şəhər Komitəsinin Təşkilat Departamentinin rəisi Yuy Yuy ilə görüş keçirilib. Görüşdə Çindao şəhəri və onun sosial-iqtisadi inkişafı barədə məlumat verilib, şəhərin tranzit, nəqliyyat-logistika və turizm imkanları diqqətə çatdırılıb. Eyni zamanda, partiya quruculuğu, partiya üzvlərinin fəaliyyəti və gənc kadrların yetişdirilməsi məsələlərindən ətraflı bəhs olunub.

Çin ilə Azərbaycanın ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı haqqında fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, qarşılıqlı səfərlər münasibətlərin inkişafına təkan verir. Fəal siyasi dialoq şəraitində iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsinin önəmi diqqətə çatdırılıb, əməkdaşlığın perspektivləri müzakirə edilib, qarşılıqlı olaraq hədiyyələr təqdim olunub.

Sonra nümayəndə heyəti tərəfindən Çindao şəhərinin Çyanşan mikrorayonunun Şinan rayonunda Çin Kommunist Partiyasının üzvlərinə və əhaliyə xidmət mərkəzi ziyarət edilib, eyniadlı ərazi partiya təşkilatının fəaliyyəti ilə tanış olunub. Bildirilib ki, mərkəz partiya üzvlərinin və rayon əhalisinin sosial məsələlərinin həllinə dəstək olur, yaşlı insanların asudə vaxtının səmərəliliyini təmin etmək üçün müvafiq işlər görür, onlara sosial xidmətlər göstərir.

Nümayəndə heyətinin üzvləri “Hisense” dövlət şirkətini də ziyarət edib, onun istehsal və ixrac potensialı ilə tanış olublar.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çindao Limanına səfəri də təşkil edilib. Bildirilib ki, Şandun yarımadasınının cənub-şərqində yerləşən Çindao şəhəri bölgənin sənaye mərkəzidir və burada tekstil, yeyinti, maşınqayırma, texniki və elektroenergetika sahələri yüksək inkişaf edib. Diqqətə çatdırılıb ki, Çindao limanının tərkibinə 5 liman ərazisi daxildir. Bu liman qrupları Mərkəzi Asiya və Avropaya yük nəqlində əhəmiyyətli paya sahibdir.

Çin - Şanxay Əməkdaşlıq Təşkilatı regional ticarət-iqtisadi əməkdaşlıq pilot zonasını ziyarət edən YAP nümayəndə heyəti burada yerləşən Azərbaycan pavilyonunda olub. Pilot zona barədə nümayəndə heyətinə ətraflı məlumat verilib.

Bununla yanaşı, partiyanın nümayəndə heyəti Yelkənli İdman növü üzrə Çindao Olimpiya Mərkəzinə baxış keçirib.

Sentyabrın 19-da YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il sentyabrın 19-da YAP Cəlilabad rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Cəlilabad rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

Sonda xatirə fotosu çəkdirilib.

# Mərkəzi Asiyada Azərbaycan imperativi

**Sentyabrın 14-də, Tacikistanın paytaxtı Düşənbədə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının V Məşvərət Görüşünə beynəlxalq və regional KİV-lər, o cümlədən Rusiya mediası da xüsusi yer ayırıb. Müxtəlif ölkələrə məxsus media platformaları əsas diqqəti Azərbaycan Prezidenti İlham Əliyevin bu toplantıda fəxri qonaq qismində iştirakına yönəldiblər. Rusiya mediası dəyişən geosiyasi vəziyyətin fonunda Mərkəzi Asiya ölkələrinin Avropa ilə güclərini birləşdirmək, nəqliyyat kommunikasiyalarını təmin etmək üçün yollar axtardığını, Azərbaycanın nəzərdə tutulan layihələrdə çox önəmli rol oynayacağını yazır.**

## Mərkəzi Asiyada "birlik" çağırışı

Xəbər verdiyimiz kimi Mərkəzi Asiya Dövlət Başçılarının V Məşvərət Görüşü Tacikistan prezidenti Emoməli Rəhmonun sədrliyi ilə baş tutub. Emoməli Rəhmon ikitərəfli görüşlərə Qırğızıstan Prezidenti Sadır Japarovla danışıqlarla başlayıb. Məlumdur ki, Tacikistan və Qırğızıstan arasında sərhədlərin dəqiq təyin edilməməsi səbəbindən iki ölkə arasında vaxtaşırı gərginlik yaşanır. Bu görüşdə prezidentlər qırğız və tacik xalqlarının yaxın qonşuluq ənənələrindən, tarixi dostluğundan da danışıblar. Dövlət başçıları sərhədlərin demarkasiyası və delimitasiyası məsələsinin yaxın zamanlarda danışıqlar yolu ilə həll ediləcəyinə ümid etdiklərini bildiriblər.

Qazaxıstan prezidenti Qasım-Jomart Tokayev isə sammitdəki çıxışı zamanı qeyd edib ki, bu gün dünya son dərəcə mürəkkəb durumdadır və Mərkəzi Asiya ölkələrinin hər biri beynəlxalq vəziyyətlə bağlı müəyyən çətinliklər yaşayır:

"Geosiyasi gərginlik artdıqca regionda sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı təmin etmək üçün gücümüzü birləşdirməyimiz həmişəkindən daha çox vacibdir" - deyə, Qazaxıstan prezidenti bildirib. Onun sözlərinə görə bu gün tədbir iştirakçılarının qarşısında duran prioritet vəzifə Mərkəzi Asiya dövlətləri arasında dostluq, qonşuluq və əməkdaşlıq müqaviləsinin tezliklə qüvvəyə minməsini təmin etməkdir.

"Bu müqavilə ölkələrimizin siyasi iradəsinin və regionumuzun taleyini müstəqil şəkildə həll etməyə hazır olduğunun aydın siyasi sübutu olacaq. Biz bütün tərəflərin mövqeyini başa düşürük, çünki bu məsələlər milli problemlərə aiddir. Eyni zamanda, birgə əməkdaşlığın tam həyata keçirilməsi üçün mümkün qədər tez ümumi mövqeyə gəlmək lazımdır." - Qasım Jomart Tokayev əlavə edib.

## Təkliflər, planlar, məqsədlər

Tacikistan lideri Emoməli Rəhmon Mərkəzi Asiya dövlət başçılarının məşvərət yığıncağının nəticələrinin regionda proseslərin inkişafına müsbət təsir edəcəyinə əminliyini bildirib. Birgə infrastruktur layihələrinin işlənməsi məsələsinə toxunan Emoməli Rahmon Tacikistanın "rahat tranzit zonası"na çevrilməyi planlaşdırdığını qeyd edib. Tacikistan lideri deyib ki, Mərkəzi Asiya ölkələri birlikdə nəhəng nəqliyyat və infrastruktur layihələrini həyata keçirməyə çalışmalıdırlar.

Sammit ərəfəsində beş ölkənin nəqliyyat nazirlərinin də görüşü keçirilib, iclasda "Mərkəzi Asiyada quru nəqliyyatının qarşılıqlı əlaqəsinin gücləndirilməsi haqqında" saziş layihəsi təsdiqlənib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə öz növbəsində Mərkəzi Asiya Dövlətlərinin İqtisadi Şurasının yaradılmasını təklif edərək bunun bütün ticarət-iqtisadi gündəm kompleksi üzrə praktiki qarşılıqlı əlaqəni genişləndirmək üçün zəruri olduğunu vurğulayıb.







## İlham Əliyevin növbəti diplomatik uğuru

Sammitə fəxri qonaq kimi dəvət edilən Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında ölkəmizin regiondakı mühüm iqtisadi və siyasi əhəmiyyətindən, eyni zamanda, etibarlı tərəfdaş və vacib tranzit ölkə kimi xüsusi mövqeyindən söz açıb. "Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarlarına gedən yolda etibarlı tranzit ölkədir" - deyə, dövlətimizin başçısı çıxışında qeyd edib. Prezident İlham Əliyev Mərkəzi Asiyalı həmkarlarına səmimi jest edərək "Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat və logistika infrastrukturu onların üzünə açıqdır" söyləyib.

Mərkəzi Asiya Dövlət Başçılarının V sammiti ilə bağlı xüsusilə, Azərbaycanın mövqeyini şərh edən "Avrasiya İdeyalarının Emalı" Elmi Tədqiqatlara Dəstək Fondunun ekspert şurasının sədri Qriqori Trofimçuk öz açıqlamasında bildirib ki, Azərbaycan son zamanlar müxtəlif səbəblərə, xüsusilə də strateji maraqlarına görə Mərkəzi Asiyada fəallığını artırır:

"Mərkəzi Asiya ölkələri qrupu son illərdə üç istiqamətdə fəallıq nümayiş etdirib. Regiondaxili fəaliyyət, Çinlə əlaqələrin canlanması və nəhayət, ABŞ-la münasibətlərdə aktivlik. Gəlin, etiraf edək ki, Rusiya regional siyasi proseslərdən davamlı şəkildə, avtomatik kənara çəkilir. Bu məqamda Azərbaycan bir çox səbəblərdən Mərkəzi Asiya ilə təmaslarını artırır. Birinci səbəb odur ki, Azərbaycan strateji cəhətdən inkişaf edir. Ona görə də Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ilə əlaqələr, bu strategiya ilə bağlı olan bütün nəqliyyat və xammal infrastrukturu Bakı üçün vacibdir" - deyə, analitik bildirib.

Beləliklə, Rusiya mediasının bu görüşlə bağlı apardığı müzakirələrdə xüsusi vurğu Azərbaycanın üzərinə düşüb və əsas diqqət Prezident İlham Əliyevin çıxışına yönəlib. Görünür, Tacikistanın Özbəkistan və Türkmənistandan keçməklə Transxəzər nəqliyyat dəhlizinə çıxışı, daha sonra isə Xəzər dənizi vasitəsilə Azərbaycan, Türkiyə və Avropaya çıxışı məsələsi şimal qonşumuzu dərindən maraqlandırıb. Rusiyalı ekspertlərin fikrincə, Özbəkistan da bu marşruta qoşulmaqda maraqlıdır.

## Azərbaycan regional gücə çevrilib

Son dönəmlər Türk Dövlətləri Birliyi ölkələrinin biri-biri ilə yaxınlaşmasına, öz aralarında siyasi, iqtisadi, mədəni əlaqələri dirçəltməsinə diqqət çəkən rusiyalı politoloq

Trofimçuk hesab edir ki, bu proseslərdə Bakı xüsusi rol oynayır. Analitikin fikrincə, Azərbaycan qardaş münasibətində olduğu Türkiyədən başqa, Mərkəzi Asiya regionunun türkdilli ölkələri: Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistanı özündə birləşdirən Türk Dövlətləri Birliyində də oynadığı aktiv rolu genişləndirir.

"Məhz bu səbəbdən, Mərkəzi Asiya ölkələri üçün bu tədbirdə Azərbaycanın iştirakı böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin məşvərət toplantısına fəxri qonaq kimi dəvət edilməsi və çıxış etməsi üçün istək də yəqin ki, buradan yaranıb. Bu cür rəsmi dəvət diplomatiyada həqiqətən, bir ilkdir və bu, simvolik xarakter daşıyır. Ümumiyyətlə isə demək lazımdır ki, Bakı qlobal siyasət sferasında özünü son dərəcə diplomatik və tədbirli aparır".

Türkdilli ölkələrin bir qurum daxilində yaxınlaşmasını "təbii proses" adlandıran ekspertin fikrincə, bu ölkələr həm də tarixi köklərinə intuitiv bağlı olduqlarından bir yerdə olmağa çalışırlar.

Beləliklə, Düşənbə görüşü barədə bütün yazılanlardan və deyilənlərdən çıxan ortaq nəticə, Mərkəzi Asiya ölkələrinin logistika və kommunikasiya əlaqələrinin inkişafında yeni mərhələyə hazırlaşmaları, Azərbaycanın isə bu prosesdə lokomotiv rola sahib olacağıdır.

***Murad Köhnəqala***

---

# Maaş və pensiyalar artırılır

Azərbaycanda sosial islahatların həyata keçirilməsi davamlı hal alıb. 2018-2023-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmaqla, bu islahatlar üzrə əlavə olaraq illik 6,8 milyard manat vəsait yönəldilib. Aparılan islahatlar çərçivəsində insanların gəlir imkanlarının artırılması xətti də mühüm yer tutur. Xüsusilə də respublikamızda əməkhaqlarının və pensiyaların artırılması davamlı olaraq diqqət mərkəzində saxlanılır.

**Əməkhaqlarının davamlı artımları**

Respublikamızda əməkhaqlarının artırılması davamlı bir ənənəyə çevrilib. Son beş ildə ölkəmizdə minimum aylıq əməkhaqqı 2,7 dəfə artırıləb. Orta aylıq əməkhaqqında 65,3 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib.

Əməkhaqlarının artırılması ənənəsi 2023-cü ildə də davam etməyib. Prezident İlham Əliyevin cari ilin əvvəlində imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncama əsasən minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırılıb. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da bu Sərəncama uyğunlaşdırılıb və minimum əməkhaqqı artımı vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edib. Ümumilikdə, minimum əməkhaqqı və VTC üzrə işləyənlərin əməkhaqqı artımı 700 min nəfərə şamil olunub. Minimum əməkhaqqı bu il üçün müəyyən olunan yaşayış minimumunu (246 manat) da 40,2 faiz üstələyir. 700 min vətəndaşımızı əhat edən minimum əməkhaqqındakı artım üçün dövlət büdcəsindən əlavə 450 milyon manat ayrıllb.

Diqqəti çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, hansı sektorda çalışmasından asılı olmayaraq minimum əməkhaqqı alan bütün vətəndaşlarımızın maaşları artıb. Artımlar özəl sektoru da əhatə edib. Yəni yalnız dövlət sektorunda deyil, özəl sektorda çalışanlara da cari ildən etibarən 345 manatdan az əməkhaqqı verilmir.

Ölkə üzrə orta aylıq əməkhaqlarının artım dinamikası da yüksəkdir. Bu ilin ilk 7 ayında respublikamızda orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,3 faiz artaraq 925,3 manat olub. Ekspertlərin qənaətinə görə bu ənənə perspektivdə də davam edəcək. "Hesablamalara görə ölkədə 12 faizlik inflyasiya müşahidə olunur. Güman edirəm ki, növbəti ilin əvvəlində hökumət yenidən minimum əməkhaqqını artıra bilər. Nəticədə ümumi orta aylıq əməkhaqlarının məbləği də yüksələcək", - deyə iqtisadçı-ekspert Xalid Kərimli KİV-ə açıqlamasında bildirib.

**Pensiyaçılara şad xəbər**

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) məlumatına görə, 2023-cü il 1 iyul tarixinə ölkədə 1 milyon 96 min nəfər pensiyaçı qeydiyyatda olub. Yəni ölkə əhalisinin 10.8 faizi pensiyaçılardır. Onların 64,1 faizi yaşa, 23,6 faizi əlilliyə, 12,3 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Son bir ildə ölkə üzrə yaşa görə pensiya alanların sayı 0,4 faiz artıb. Bu yaşa görə pensiya alanların sayında kiçik də olsa artımın qeydə alınması anlamına gəlir. Orta pensiya məbləği ötən ilin uyğun dövrü ilə müqayisədə 18,2 faiz artaraq 435,0 manat olub. Əmək pensiyasının minimum məbləği isə 16,7 faiz artırılaraq 2023-cü ilin 1 fevral tarixindən 280 manat müəyyən edilib.

Bəs, pensiyalarda növbəti artımlar nə vaxt gözlənilir? Bu sualla Milli Məclisin deputatı Vüqar Bayramova müraciət etdik. Milli Məclisin deputatı "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki,

müvafiq qanunvericiliyə uyğun olaraq orta aylıq əməkhaqqındakı artım faizi (cari ilin əvvəlindən 11 faizdən çox) növbəti yanvar ayında pensiyaların indeksasiyası zamanı istifadə edilən göstəricidir. Yəni bu il ərzində orta maaş nə qədər artacaqsa, növbəti ildən pensiyalarda artım da o qədər olacaq.

"Hazırda indeksləşmədə iki göstəricidən (orta aylıq əməkhaqqının artım səviyyəsi və inflyasiya göstəricisi) istifadə edilir. Pensiya məbləği əvvəlki ildə orta aylıq nominal əməkhaqqında artım tempinə, pensiya kapitalı isə inflyasiya göstəricisinə indeksasiya olunur. Bu ildən tətbiq olunan vahid indeksasiya sistemi bütün əmək pensiyası alan vətəndaşlarımızın pensiya məbləğlərinin hər il yanvar ayında əvvəlki il üzrə orta aylıq əməkhaqqındakı artım faizinə uyğun artırılmasını nəzərdə tutur.

Bu ilin 7 ayındakı tendensiya saxlanacağı halda gələn ilin yanvar ayında pensiyalar təxminən 11 faizə indeksasiya olunacaq. Təbii ki, daha dəqiq rəqəm 2024-cü ilin yanvar ayında elan olunacaq. Bütün hallarda, orta maaşda artım tempi yüksəldikcə pensiyalarda daha çox artımlar müşahidə olunacaq. Bu baxımdan, orta aylıq əməkhaqqındakı artım faizi yalnız ölkə iqtisadiyyatında muzdla çalışan işçilər üçün deyil, həmçinin pensiyaçılar üçün də əhəmiyyətlidir", - deyə Vüqar Bayramov vurğulayıb.

***MÜBARİZ***

---



# Ümumbəşəri "bəla"...

## COVİD-19 yenidən gündəmdə

### Dünya üzrə yoluxma sayı 38 faiz artıb

Dünya əhalisi koronavirusdan xilas olduğunu zənn edirdi. Ancaq xəstəlik yeni ştammları ilə özünü yenidən göstərməyə başlayıb. Təzəcə rahatlamışdıq ki, payız-qış mövsümünün gəlişi ilə "bəşəri bəla" olan koronavirus yeni ştammı ilə bir daha özünü gündəmə gətirdi: Onun "Eg.5.1", "Eris" və "BA.2.86" adlı yeni ştammları aşkarlanıb.

Pandemiya keçmişdə qalmış kimi görünsə də, reallıq budur ki, son mutasiyaya uğramış ştammlar səbəbindən yoluxma halları yenidən artmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, son zamanlar dünya üzrə COVİD-19-a yoluxanların sayı 38 faiz artıb. Belə ki, Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda yoluxma sayında kəskin artım qeydə alınıb.

"Eris" ölümcül virus olmasa da, daha sürətlə yayılması və yoluxuculuğunun digər ştammlara nisbətən artıq olması səbəbindən ÜST-ü ciddi narahat edir. Hazırkı vəziyyətlə bağlı təşkilat bütün dünya dövlətlərini erkən və ciddi tədbirlər görməyə çağırıb.

Təşkilat xüsusilə ABŞ başda olmaqla, Avropa və Asiya ölkələrində geniş yayılan "Eris" ştammı ilə bağlı yeni hesabat dərc edib. Hesabatda bildirilir ki, EG.5 ("Eris") COVİD-19-un "Omikron" variantının alt növüdür və bütün dünyada yayılan digər variantlarla sıx bağlıdır. Statistikaya nəzər salsaq, görərik ki, avqust ayında 51 ölkədən 7 minə yaxın şəxs məhz sözügedən varianta yoluxub. Lakin quruma görə, bu ştammın ictimai sağlamlıq riski çox böyük deyil. Bu da özündən əvvəlki ştammlara bənzərliyi ilə bağlıdır.

ÜST-ün məlumatına görə, son ayda Avropada yoluxmada artım 39 faiz, Sakit okeanın qərbində 52 faiz, Aralıq dənizinin şərqində isə 113 faiz təşkil edir.

**Azərbaycanda bir ayda 18 dəfə artım**

COVİD-in dünyada müşahidə olunan artım tendensiyası Azərbaycandan da yan keçməyib. Son bir ayın statistikasına nəzər saldıqda məlum olur ki, 7-13 avqustda Azərbaycanda COVİD-ə 8 yoluxma qeydə alınıbsa, növbəti həftələrdə yoluxmada ciddi artım baş verib. Nəticədə son həftədə - 11-17 sentyabrda ölkə üzrə 142 yoluxma qeydə alınıb. Bu isə 17.75 dəfə artım deməkdir. Xüsusi vurğulamaq lazımdır ki, bu, rəsmi statistikadır, qeydiyyata düşməyən yoluxma sayı isə daha çoxdur. Belə ki vətəndaşlar pandemiyanın bitdiyini düşünür, bu səbəbdən də özlərində COVİD əlamətləri hiss etdikdə test verməyi lazım bilmirlər. Əvvəllər olduğu kimi, test verilməsi məsələsinə ciddi yanaşıldığı təqdirdə, COVİD-ə yoluxma rəqəmlərinin indikindən dəfələrlə yüksək olacağını düşünmək olar.

**İlk pandemiya statistikası yaxınlaşır...**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən infeksionist-həkim Vüqar Cavadzadənin sözlərinə görə, yaxın gələcəkdə statistikada ciddi artım müşahidə oluna bilər. Buna səbəb məktəblərin açılması, yay tətilinin başa çatması və havaların soyumasıdır. İnfeksionist qeyd edib ki, yeni ştammların əsas simptomları dadbilmə, iybilmə qabiliyyətinin itməsi və səsin batmasıdır: "ÜST-ün məlumatına görə, son ay ərzində dünya üzrə yoluxanların sayında 38 faiz artım müşahidə edilib. ABŞ-da isə vəziyyətin daha ağır olduğu bildirilib. Birləşmiş Ştatlarda COVİD-19-a yoluxma halları 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. Ölkədə gündə 650 mindən çox sakində virus aşkarlanır. Yaxın aylarda isə ABŞ əhalisinin təxminən 10 faizinin bu virusa yoluxacağı gözlənilir".

**"Eris"in simptomları...**

Həkimin sözlərinə görə, qlobal miqyasda koronavirus pandemiyasının demək olar ki, başa çatdığı hesab edilsə də, virus hələ də yer üzündə yayılaraq insanları öldürür: "EG.5" ("Eris") adlı yeni mutasiya ilk dəfə 2023-cü ilin fevralında aşkar edilib. "Eris" ştammına yoluxmanın simptomları arasında boğaz ağrısı, ishal, qoxu və dadbilmənin itməsi, öskürək, əzələ və baş ağrıları, burun axması və nəfəs darlığı daxildir. Bundan əlavə, bu ştamm xroniki xəstəlikləri və zəif immun sistemi olan insanlarda aşağı tənəffüs yollarında funksional pozğunluqlara səbəb ola bilər".

**Ən çox narahatlıq doğuran yeni mutasiya**

İnfeksionist qeyd edib ki, "Pirola" adlandırılan yeni "BA.2.86" variantı hazırda ÜST tərəfindən ilk dəfə "omikron" ştammı ortaya çıxdıqdan bəri COVİD-19-un "ən çox narahatlıq doğuran yeni mutasiyası" kimi təsvir edilir: "Onun simptomları sırasına boğaz ağrısı, burun axması, burun tutulması, asqırma, öskürək, bəlğəmli və ya quru öskürək, baş ağrısı, səsdə xırıltı, əzələ ağrısı və qoxu hissi azalması daxildir.

Simptomların oxşarlığına görə COVİD-19 mövsümi xəstəlik xüsusiyyətlərini qazanıb. Payız-qış mövsümünün başlaması səbəbindən bir qayda olaraq, kəskin respirator virus infeksiyaları ilə xəstələnənlərin sayı artır. Bu tam olaraq gözlənilən bir haldır. Koronavirusun simptomlarının digər infeksiyaların simptomlarına bənzədiyini nəzərə alsaq, dəqiq diaqnozu yalnız laborator analizlərin nəticələrinə əsasən qoymaq olar. Bu gün COVİD-19-a qarşı əsas profilaktik tədbir peyvənddir. Bununla yanaşı, koronavirus və digər kəskin respirator virus infeksiyalarının profilaktikasının ənənəvi üsulları da var: əllərin müntəzəm olaraq yuyulması və ya onların antiseptiklərlə silinməsi".

**Azərbaycan üçün təhlükə var?**

V.Cavadzadə qeyd edib ki, hazırda Azərbaycanda koronavirusun "Eris" variantının yayılması barədə rəsmi məlumat yoxdur. Həkim bildirib ki, ölkədə epidemioloji durum yoluxma hallarında cüzi, əhəmiyyətsiz artımın olmasına baxmayaraq stabildir: "Koronavirusun bütün növlərindən, o cümlədən, sonuncu mutant altnövlərdən qorunmaq tədbirləri eynidir. Yəni, pandemiya dönəmində əhalinin riayət etdiyi qaydalara yoluxma halları artdıqca əməl olunmalıdır. Hər kəs, xüsusilə immun sistemi zəif insanlar sağlamlıqlarına daha ciddi yanaşmalıdırlar. 65-dən yuxarı yaşı olanlar həmişəki kimi risk qrupuna daxildir. Verilən məlumatlara görə, həmin yeni ştammlara yoluxanlar arasında 65 yaşdan yuxarı olanların sayı daha çoxdur. Bu da immun sisteminin zəif olması ilə bağlıdır".

**İnfeksiyalar sərhəd tanımır...**

Həkimin sözlərinə görə, "Eris" variantının ölkəmizdə aşkarlanmadığına dair rəsmi açıqlama verilsə də, infeksiyalar sərhəd tanımır: "Digər yandan, qarşıdan payız mövsümü gəlir. Məlum məsələdir ki, həmin mövsüm respirator infeksiyaların baş qaldırdığı və daha sürətlə yayıldığı dövrdür. Odur ki, hər kəsə üç ildir tövsiyə edilən gigiyena qaydalarına əməl edilməsi, özündə əlamətlər hiss edənlərin təcrid olunması və test verərək yoluxub-yoluxmadığını müəyyənləşdirməsi, vaksinasiyadan keçməyənlərin isə peyvənd olunması məsləhət görülür".

***Yeganə BAYRAMOVA***

# İsveç cavab gözləyir...

## TBMM Stokholmu oktyabrda NATO üzvü edəcəkmi?



Bir ildən artıqdır ki, NATO-ya "növbə gözləyən" İsveçin məsələsi yenidən gündəmə gəlib. Belə ki, NATO Baş katibi Yens Stoltenberqlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Nyu-Yorkda görüş keçirilib. Bununla bağlı NATO Baş katibi "X" hesabında paylaşım edib. Stoltenberq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Nyu-Yorkda görüşməkdən məmnun olduğunu bildirib: "Biz terrorla mübarizəmizi gücləndirməyi müzakirə etdik və mən Türkiyənin Qara dəniz taxıl müqaviləsini canlandırmaq üçün gördüyü işlərə görə ona təşəkkür etdim. Vilnüsdə razılaşdırıldığı kimi, Türkiyə parlamenti İsveçin NATO-ya üzvlüyünə ən qısa zamanda baxacaq".

Qeyd edək ki, bu yaxınlarda İsveçin xarici işlər naziri Tobias Bilstrom da ölkəsinin oktyabrda Türkiyə parlamentinin iclası zamanı Ankaranın şimal ölkəsinin NATO üzvlüyünü ratifikasiya edəcəyinə ümid bəslədiyini dilə gətirmişdi. O bildirmişdi ki, İsveç hökuməti yayda heç bir siqnal almadığı üçün Vilnüsdə verilən bəyanatın qüvvədə olması məsələsinin hələ də aktual olduğuna inanır.

### Üçtərəfli Memoranduma əsasən...

Xatırladaq ki, İsveç və Finlandiya 2022-ci ilin mayında Şimali Atlantika Alyansına qoşulmaq üçün müraciət etmişdi, lakin Türkiyə onlardan PKK-nı terrorçu elan etmələrini və 2016-cı ildə dövlət çevrilişinə cəhddə iştirakda ittiham olunanların ekstradisiyasını tələb edərək giriş prosesini əngəlləmişdi. Ötən il iyunun 28-də NATO-nun Madrid sammiti çərçivəsində Türkiyə, İsveç və Finlandiya arasında üçtərəfli Memorandum imzalanmışdı. Rəsmi Ankara iki Skandinaviya ölkəsinin Şimali Atlantika Alyansına daxil olması üçün irəli sürdüyü tələblərin yerinə yetirilməsinə nail olmuşdu imzalanan Memoranduma əsasən rəsmi Ankaranın tələblərinə qarşı Skandinaviya ölkələri PKK və onun uzantıları ilə mübarizədə Türkiyə ilə tam əməkdaşlığa, terrorun bütün forma və təzahürləri ilə mübarizədə Türkiyə ilə həmrəylik nümayiş etdirilməsinə, PYD/YPG və FETÖ-yə dəstək verməmək öhdəliyinə razılaşmışdı. Bununla yanaşı, müdafiə sənayesi sahəsində embarqo məhdudiyyətlərinin qoyulmaması, əməkdaşlığın artırılması, terrorla mübarizə və müdafiə sənayesi üzrə İsveç və Finlandiyanın milli qanunvericiliyinə və təcrübələrinə düzəlişlər etmək öhdəliyi, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində kəşfiyyat məlumatlarının mübadiləsi üzrə strukturlaşdırılmış əməkdaşlıq mexanizminin yaradılması və terrorçu cinayətkarların ekstradisiyasına dair konkret addımların atılması və ikitərəfli müqavilə tənzimləmələrinin aparılması ilə bağlı razılaşma sənəddə öz əksini tapmışdı. İsveç və Finlandiya PKK, onun qolları və cəbhə təşkilatlarının pul toplama və işə götürmə fəaliyyətlərinin qadağan edilməsi, onların araşdırılması, Türkiyəyə qarşı terror təbliğatının qarşısının alınması, hər iki ölkənin Aİ təhlükəsizlik mexanizmlərində, o cümlədən PESKO (Aİ Daimi Strukturlaşdırılmış Əməkdaşlıq Prosesi) ən geniş iştirakının dəstəklənməsi ilə bağlı da öhdəlik götürmüşdü.

Amma ötən müddət ərzində İsveç bu öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır Türkiyənin rəsmi Stokholmdan tələb etdiyi terrorçuların təslim edilməməsi isə İsveçin NATO yolunu bağlayır. Bunun qarşılığında isə martın 31-də Türkiyə Böyük Millət Məclisinin Baş Assambleyası Finlandiyanın NATO-ya qəbulu ilə bağlı Protokolun təsdiq edilməsi təklifini müzakirə edib. Deputatların səsverməsinə çıxarılan təklif qəbul olunub.



Bununla da Finlandiyanın NATO-ya üzv olması üçün Parlamentdə atılan addım tamamlanıb. Vurğulayaq ki, Finlandiya Türkiyədən əvvəl NATO-ya üzv olan 29 ölkənin təsdiqini almışdı. Türkiyənin də razılığı ilə onun üzvlük prosesi tamamlandı.

İsveçin NATO-ya tamhüquqlu üzv olması məsələsində bir faktor da ABŞ-ın Türkiyəyə F-16 satması ilə bağlı məsələdir. Bəlli olduğu kimi, Türkiyənin ABŞ-dan F-16 qırıcılarının alınması prosesi artıq uzun müddətdir ki, davam edir. hətta bu prosesin süni şəkildə uzadılması haqda da fikirlər səslənir. Belə ki, ötən ilin iyulunda da Ağ Ev bu addıma razılıq bildirsə də, Senatın bəzi nümayəndələri buna qarşı çıxaraq Türkiyənin Rusiya ilə münasibətlərini səbəb kimi göstərmişdilər. Sonrakı mərhələdə

### "F-16" şərtinə əməl edilmir...

isə irəli sürülən tələb Türkiyənin İsveçi qeyd-şərtsiz NATO üzvü kimi tanıması idi. Amma rəsmi Ankaranın bu tələblərə məhəl qoymaması amerikalı senatorların arzularını ürəyində qoydu bunun nəticəsidir ki, artıq ABŞ rəsmi şəkildə Türkiyəyə F-16 satmaqda maraqlı olduğunu bildirir. Qeyd edək ki, məsələ ilə bağlı mətbuata açıqlamalarında həm prezident Co Bayden, həm də dövlət katibi Entoni Blinken F-16 təyyarələrinin Türkiyəyə satılmasına razı olduqlarını deyiblər. Ortada olan tək "maneə" isə ABŞ-ın Türkiyəyə F-16 döyüş təyyarələri satmasına qarşı çıxan amerikalı senatorlardır - məsələn, Senatın Xarici Əlaqələr Komitəsinin sədri Bob Menendez seçkilərdən sonrakı mərhələdə Türkiyə liderinin keçmiş mövqeyini davam etdirəcəyi təqdirdə razılaşmaya qarşı çıxmaqda davam edəcəyini söyləyir.

### İsveçin "oktyabr gözləntisi"...

Beləliklə, İsveç NATO-nun tamhüquqlu üzvü olmaqla bağlı "ümidlərini" qarşıdan gələn oktyabra bağlayıb. Rəsmi Stokholm anlayır ki, indiki halda Türkiyə parlamentinin bu məsələyə müsbət yanaşma sərgiləməsi bir o qədər də inandırıcı görünmür. Başqa sözlə, nə üçtərəfli Memorandumun şərtlərinə əməl etməyən, nə terrorçularla bağlı qəti mövqe sərgiləməyən, "Quran"ın yandırılması ilə bağlı başlanan "kampaniyanı" davam etdirən İsveçin Türkiyədən "hə" cavabı alacağı inandırıcı görünmür. Nəzərə alınmalıdır ki, Türkiyənin irəli sürdüyü şərtlərdən biri olan Avropa İttifaqına üzvlüklə bağlı məsələnin tezləşdirilməsi də "dondurulub". Hətta Aİ rəsmiləri bu prosesin yaxın zamanda başlaması ehtimalını belə təkzib edirlər. Belə olan halda, İsveçin "oktyabr gözləntisi"nin müsbət cavablanacağına ümid azalır...

*SADİQ*

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

# Ölkəmizin çevik gəncləri

*Günel ABBAS*

Dövlətimiz bədən tərbiyəsi və idmanı inkişaf etdirməklə böyüməkdə olan gənc nəslin daha sağlam, fiziki cəhətdən güclü, mənən kamil, Vətənini və xalqını sevən gənclər kimi yetişməsinə nail olur. Bu böyük işlərin əsası Azərbaycanın müstəqillik əldə etdiyi illərdə qoyulub. Həmin dövrdə uşaq, yeniyetmə və gənclərin mənəvi və fiziki inkişafında mühüm rol oynayan bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının yaradılması üçün böyük işlər görülüb.

Hər bir ölkə və xalqın dünya miqyasında tanınmasında idman və idmançıların da böyük əməyi var. İdmançılar əldə etdiyi qələbələrlə təmsil olunduğu dövləti başqa xalqlar arasında da tanıdır. Azərbaycan artıq çoxdandır idman ölkəsi olduğunu sübut edib. Beynəlxalq yarışları keçirmək təcrübəsinə malik olan Azərbaycanda müasir idman qurğularının yaradılmasına da xüsusi diqqət yetirilir, ölkəmizdə başlanılan bütün layihələr uğurla, həm də vaxtında icra olunur. Müasir idman qurğularının yalnız Bakıda deyil, eləcə də regionlarda inşası isə ölkəmizdə gənclərin idmana marağının artırılması və idmanın kütləviliyinin təmin edilməsi istiqamətində atılan addımların ardıcıl xarakter aldığını nümayiş etdirir. Bu cür layihələrin reallaşdırılması, eyni zamanda, gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində də mühüm rol oynayır.



### Atıcılıq idman növü inkişaf edir

Bu cür əhəmiyyətli layihələrdən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Bakı Atıcılıq Mərkəzinin qurulmasıdır. Mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsində istifadə olunur. Bakı Atıcılıq Mərkəzinin yaranması ölkədə xüsusilə stend atıcılığı idman növünə olan marağı artırdı.

Yeri gəlmişkən, bir neçə gün əvvəl "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və "Gənc SİMA" İctimai Birliyinin tərəfdaşlığı ilə Bakı Atıcılıq Mərkəzində "Hədəf 12" gənclər arasında atıcılıq turniri keçirilib. Gənclər tərəfindən böyük maraqla qarşılanan, artıq ikinci ildir ki, həyata keçirilən turnirin təşkil olunmasında əsas məqsəd hərbi-vətənpərvərlik hissinin aşılanması, bu idman növünə marağın artırılması və gənclərin asudə vaxtının səmərəli təşkil edilməsidir.

Turnirdən öncə gənclər peşəkar təlimçilər tərəfindən silahla davranış qaydaları, silahdan təhlükəsiz istifadə, müxtəlif hərəkətli



və dayanıqlı hədəflərə atış, dəqiq nişanalma və digər təməl bacarıqlar haqqında ətraflı məlumat əldə ediblər. Gənc qazilər turnirin formatına uyğun olaraq komanda kapitanı və təlimatçı kimi yarışa qatılıblar. 15 komandanın iştirak etdiyi 3 mərhələdən ibarət turnirdə ən çox hədəfi vuran "Zəfər" komandası qalib elan olunub, "Murov" və "Canavarlar" komandaları müvafiq olaraq 2-ci və 3-cü yerləri tutublar. Həmçinin ən yüksək nəticə ilə turnirin "Sərrast atıcı"sı müəyyənləşib.

Mükafatlandırma mərasimində iştirak edən Milli Olimpiya Komitəsinin və Azərbaycan Atıcılıq Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu Zemfira Meftahətdinova, "Böyük Qayıdış" Gənclər Təşkilatının sədri Nail Şükürov, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin sektor müdiri Elşən Qəhrəmanov və təşkilatın idarə heyətinin üzvü, Aprel döyüşlərinin qazisi, ehtiyatda olan baş leytenant Əhliyət Mehdiyev qalibləri kubok, medal və sertifikatlarla təltif edib, onlara hədiyyələrini təqdim ediblər.

Olimpiya çempionu Zemfira Meftahətdinova "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Azərbaycanda stend atıcılığı ilə 1920-ci ildən məşğul olmağa başlanılıb: "Ölkənin stend atıcılarının Olimpiya Oyunlarında iştirakı 1988-ci ildə Seul olimpiadasından başladı. Bu idman növündə ölkəni təmsil edən Valeri Timoxin Seul və Atlanta olimpiadalarının iştirakçısı olub. Güllə və stend atıcılığı üzrə Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında, dünya kubokunda daim yaxşı nəticələr olub. Bu idman növündə Olimpiya, dünya və Avropa çempionumuz var. Ölkəmizdə daima bu idman növü üzrə ölkə çempionatı, paytaxt yarışları keçirilir. Sevindirici hal budur ki, həm paytaxtda, həm regionlarda inkişaf gedir. Federasiya tərəfindən yeni klublar yaradılır və regionlarda tirlər quraşdırılır, stend atıcılığı üçün şərait yaradılır".

---

# Gürcüstanda nə baş verir?

Cari ilin əvvəlindən bəri qonşu Gürcüstanda hakimiyyət böhranına yol açan, cəmiyyətdə ciddi qütbləşmələrə səbəb olan proseslər izlənilir.  Mart ayında paytaxt Tbilisidə "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi ilə bağlı gərginlik yaşandı. Bir neçə gün davam edən qarşıdurmalardan sonra bəhs olunan qanun layihəsinin parlamentdə müzakirələri qeyri-müəyyən müddətədək dayandırıldı.

Aradan cəmi iki ay ötəndən sonra Tbilisi yenidən etiraz dalğaları ilə çalxalandı. Bu dəfə etirazlara qonşu Rusiyada verilən qərar - prezident Vladimir Putinin Gürcüstan vətəndaşları üçün tətbiq olunan viza rejiminin ləğvinə dair mayın 10-da ayrıca fərman imzalaması səbəb oldu. Sənədə əsasən, mayın 15-dən Gürcüstan vətəndaşlarına şəxsiyyəti təsdiq edən etibarlı sənədlər əsasında Rusiya ərazisinə vizasız daxil olmaq və 90 günə qədər bu ölkədə vizasız qalmaq hüququ verilir. Rusiya prezidenti, həmçinin Gürcüstana uçuşlarla bağlı aviaşirkətlərə qoyulan qadağanı da ləğv edib. Müxalifət  və vətəndaş cəmiyyəti təsisatları "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini, eləcə də Rusiya prezidentinin imzaladığı sənədə və qonşu ölkədən Gürcüstan ərazisinə uçuşların bərpasına yerli hökumətin loyal yanaşmasını iqtidarın Avropaya inteqrasiya kursundan geri dönüşü kimi dəyərləndirərək buna sərt təpkilərini ortaya qoydu.

### S.Zurabişvili müxalifətin yanında

Hakimiyyətdə və cəmiyyətdə parçalanmanı şərtləndirən həm də o amil oldu ki, prezident Salome Zurabişvili sözügedən qanun layihəsinə münasibətdə etirazçıları dəstəklədi. Dövlət başçısı, həmçinin Moskva ilə Tbilisi arasında aviareyslərin bərpası ilə bağlı hökumətin səhv siyasi kurs götürdüyünü hədəfə alan bəyanatlar verdi. Bu dəfə hakimiyyət geri çəkilmədi və Rusiya ilə Gürcüstan arasında uçuşların bərpa olunmasının ölkənin milli maraqlarına uyğun gəldiyini əsaslandırdı.

Salome Zurabişvili yalnız siyasi bəyanatlar verməklə kifayətlənmədi. O, mayın 20-də Tbilisidən Moskvaya reys həyata keçirən yerli "Georgian Airways" aviaşirkətini boykot etdiyini, bir daha bu qurumun xidmətlərindən yararlanmayacağını publik şəkildə açıqladı. Xanım prezident həmvətənlərini də ondan nümunə götürməyə çağırıb. S.Zurabişvili bəyanatlarında əsaslandırırdı ki, Rusiya ilə hava reyslərinin bərpası ölkə əhalisinin böyük əksəriyyətinin istəyinə ziddir.

Milli aviasiya şirkətinin dövlət başçısına eyni ruhda cavabı da özünü çox gözlətmədi - şirkət bundan sonra prezidentin təyyarələrinə xidmət göstərməyəcəyini bəyan etdi. "Xanım Salome milli aviaşirkəti boykot etdiyini bildirib. O, gürcü xalqından üzr istəməyənə qədər onu "persona non-qrata" elan edirik, onu təyyarəyə buraxmayacağıq", - deyə şirkətdən bildirilib.

Xatırladaq ki, Gürcüstandan Rusiyaya hava uçuşları siyasi səbəblərə görə 2019-cu ildə dayandırılmışdı.

### Prezidentin impiçmentinə hazırlıq

Gürcüstanda prezidentin məlum səfərindən dərhal sonra - sentyabrın ilk günlərindən onun impiçmenti üçün hakim "Gürcü arzusu" partiyası tərəfindən imzatoplama kampaniyasına başlanıb. Bu barədə partiyanın lideri İrakli Kobaxidze  keçirdiyi mətbuat konfransında bildirib. Onun sözlərinə görə, Prezident Salome Zurabişvili ölkə Konstitusiyanı kobud şəkildə pozub. "Prezidentin qanunu pozmasına ən səmərəli cavab impiçmentdir", - deyə İ.Kobaxidze bildirib.

Qeyd edək ki, prezidentə impiçment göstərilməsi üçün deputatların 2/3-nin razılığı kifayətdir. Hazırda Gürcüstan parlamentdə hakim partiyanın 84 üzvü var. İmpiçmentə isə 100 səs lazımdır. 50 deputatın imzası etimadsızlıqla bağlı prosedura başlamaq üçün yetərlidir.

Gürcüstanın baş naziri İrakli Qaribaşvili hakim "Gürcü arzusu" partiyasının prezident Salome Zurabişvilinin impiçmenti barədə qərarını ədalətli adlandırıb. Onun fikrincə, hökumət qanunun nümunəsi və müdafiəçisi olmalıdır, ona görə də Zurabişvilinin impiçment edilməsi qərarı "tamamilə ədalətlidir".

Eyni zamanda, parlamentin Prosessual məsələlər və reqlament komitəsi impiçment proseduruna başlamaq üçün tələb olunan əksər deputatların imzalarının həqiqiliyini təsdiqləyib. Hakim "Gürcü Arzusu" fraksiyasından olan deputat İrakli Kadaqişvili S.Zurabişvilinin konstitusiyanın tələblərini kobud şəkildə pozduğunu bildirib. Vurğulanıb ki, impiçmentlə bağlı, ümumilikdə, Konstitusiya Məhkəməsinə təqdim etmək üçün 80 deputatın imzası toplanıb.



### Yeni hakimiyyət böhranı

Son bir ayda Gürcüstanda yeni hakimiyyət böhranı yaranıb. Motivlər bu dəfə də eyni olduğu kimi, qarşı-qarşıya duran cəbhələrdə yer alan similar da dəyişməyib. Bu dəfə də prezident Salome Zurabişvili  ilə İrakli Qaribaşvilinin hökuməti üz-üzədir. Qonşu ölkədə Ukrayna hadisələrinə oxşar proseslər izlənilir. Ölkə iki seçimlə əlaqədar çalxalanır. Hökumət Qərbə inteqrasiyaya həvəsli görünməməkdə günahlandırılır. Prezident Salome Zurabişvili isə Avropa İttifaqı ilə inteqrasiyanın intensivləşdirilməsinin tərəfdarıdır. Bu məqsədlə o, avqustun sonlarında Avropa turnesini reallaşdırıb. Elə bu səfər də Gürcüstanda nisbətən səngiyən hakimiyyət böhranını yenidən alovlandırıb. Hökumət S.Zurabişvilinin Gürcüstanın Avropa İttifaqına namizədliyinin dəstəklənməsi üçün xarici dövlətlərin liderləri ilə görüşmək məqsədilə Avropaya səfərini qəbuledilməz sayıb.

### Dövlət çevrilişi xəbərdarlığı

Gürcüstanda dövlət çevrilişinə cəhd ola bilər. Bu barədə Gürcüstanın Dövlət Təhlükəsizlik Xidməti sosial şəbəkələrdə məlumat yayıb. Qeyd olunur ki, "sabitliyi pozmaq və hökuməti güc yolu ilə devirmək üçün iğtişaşlar oktyabr-dekabr aylarında başlaya bilər". Departament bildirir ki, məhz bu müddət ərzində Avropa Komissiyasının Gürcüstana Avropa İttifaqı üzvlüyünə namizəd statusu verilməsi ilə bağlı qərarının ictimaiyyətə açıqlanması planlaşdırılır. İddialara görə, qərar mənfi olacaq və bu, " iğtişaşlar üçün münbit zəmin yaradacaq".

Təhlükəsizlik xidməti, həmçinin potensial "sui-qəsdçilərin" adlarını da açıqlayıb. Onların arasında Gürcüstanın keçmiş daxili işlər naziri Vano Merabişvili, onun sabiq müavini Qiya Lordkipanidze, Gürcüstanın keçmis prezidenti Mixail Saakaşvilinin sabiq təhlükəsizlik zabiti Mixail Baturin, həmçinin Mamuka Mamulaşvili də var. Bu şəxslərin müxtəlif ssenariləri, o cümlədən "çadır şəhərciyi yaratmaq, barrikadalar qurmaq və hökumət binalarını mühasirəyə almaq" imkanlarını nəzərdən keçirdikləri bildirilir.

*Mübariz ABDULLAYEV*

# Meteohəssas insanların diqqətinə...

## Maqnit qasırğasının sağlamlığa təsiri

*Y.BAYRAMOVA*

Günəşdə baş verən partlayışlar səbəbindən Yerin maqnit sahəsində pozuntular əmələ gəlir. Məhz bu pozuntular nəticəsində maqnit qasırğası baş verir. Bu cür dalğalanmalar rabitə sistemlərinin işinə, eləcə də insan sağlamlığına mənfi təsir göstərə bilər.

Son günlər maqnit qasırğasının olacağı ilə bağlı xəbərlər yayılmaqdadır. Hətta bununla əlaqədar əhaliyə xəbərdarlıqlar da edilir. Belə günlərdə insanların təcili yardım və nevropatoloqlara müraciəti və zəngləri də artır. Maqnit qasırğası nəticəsində yolda və nəqliyyatda insanların ayaq üstündə yuxulaması, əzginlik, bədənə istilik gəlməsi, əsəbilik müşahidə edilir. Psixoloji baxımdan zəif, meteohəssas və nevroloji xəstələrdə xəstəliyin simptomları daha da fəallaşır, panik atak tutmaları kəskin artır. Həkimlər belə günlərdə açıq havada az olmağı tövsiyyə edirlər.

### Maqnit qasırğası nədir?

Günəşdə epizodik olaraq özünəməxsus partlayışlar olur və bunun nəticəsində planetlərarası məkana enerji yüklənmiş xırda hissəciklərin (günəş plazması adlanır) nəhəng axını atılır. Onlar Yer kürəsinin maqnit qatına çatdıqda onunla qarşılıqlı əlaqəyə girib bu qatı bir növ "qəzəbləndirir", fırtına qoparır. Bütün dünya əhalisinin 1/3-i meteopatdır, yəni onlar maqnit fırtınasının yaxınlaşmasını daha tez hiss edirlər. Maqnit dalğasında kiçik bir artım belə sağlamlığa təsir edə bilər.

Bəşəriyyət tarixində indiyə qədər müşahidə olunan ən güclü maqnit qasırğası 1859-cu ildə baş verib.

### Süni maqnit qasırğası

Mütəxəssislər üç cür maqnit qasırğasının olduğunu qeyd edirlər. Birincisi, Günəşdə partlayış baş verəndə elektromaqnit dalğalar Yer kürəsinə düşür və təsir göstərir. İkincisi, Yer kürəsinin özünün elektromaqnit qatları var. Həmin qatlar küləkdə, elektromaqnit qasırğada özünü qoruyur. Üçüncüsü, süni surətdə yaradılmış maqnit qasırğası. Günəşdə partlayış olacağını əvvəlcədən bilmək mümkün deyil. Əgər 2-3 gün qabaq maqnit qasırğasının olacağını deyirlərsə, bu, sünidir. Çünki günəş özü nüvədir. O, qızdıqca üzərində ləkələr olur. Ləkələr nə qədər çox olsa, temperatur da o qədər yüksək olur və bir o qədər partlayışlar baş verir. Nəhəng partlayış, qasırğa baş verəndə yer kürəsinə gəlib çatan zaman insanlar özlərini pis hiss edirlər.

### Sağlam insanlarda belə...

Mövzu barədə "Yeni Azərbaycan"a danışan həkim Şahvələd Məmmədovun sözlərinə görə, geomaqnit qasırğalarının orqanizmə bir çox mənfi təsirləri ola bilər. Bu, daha çox ürək, qan-damar və sinir sisteminə mənfi təsir edir. Həkimin sözlərinə görə, atmosfer təzyiqində baş verən dəyişikliklər qəfil çəkili, ürək-damar problemlərindən əziyyət çəkənlər, infarkt keçirmiş şəxslər üçün daha çox narahatlıq yaradır: "Qeyd olunan xəstəliklərdən əziyyət çəkən, eləcə də yaşlı insanlar elektromaqnit dalğalarında olan dəyişiklikləri daha çox hiss edirlər. Maqnit qasırğasının təsirləri əsasən bir neçə gün büruzə verir. Daha çox meteohəssas insanlarda təzyiqin birdən-birə dəyişməsi qeydə alınır. Bu müddətdə tamamilə sağlam insanlarda belə, qan təzyiqinin yüksəlməsi halları olur".



### Saat 18:00-dək...

Həkim qeyd edib ki, geomaqnit qasırğası gözlənilən günlərdə Günəş şüalarının birbaşa təsiri altında, açıq havada olmamaq, saat 10-dan 17:00-18:00-a qədər çölə çıxmamaq, sərin yerdə vaxt keçirmək, gün ərzində 2 litrədək maye qəbul etmək məsləhətdir.

### İnsult riski...

Ş.Məmmədovun sözlərinə görə, geomaqnit qasırğası nevroloji xəstəliklər içərisində əsasən insult riskini artırır: "Aparılan tədqiqatlar göstərir ki, Günəşin solar aktivliyi artdıqca müxtəlif yaş qruplarında da insult riski artmış olur. Aşağı dərəcədə geomaqnit qasırğası 7-12 faizə qədər, güclü qasırğa isə 41 faizə qədər insult riskini artıra bilər".

### Bu şəxslər diqqətli olmalıdırlar

Həkim bildirib ki, əsasən, təzyiq, şəkər xəstələrini, infarkt, insult keçən şəxsləri diqqətli olmalıdır: "İnsult keçirən xəstələrin bu günlərdə qan təzyiqi, şəkər kimi əlavə problemlərini nəzarətdə saxlamaları məsləhətdir. Bundan başqa, qollarda, ayaqlarda gücsüzlük, görmə pozulması, baş ağrısı, kimi şikayətləri olanlar vaxt itirmədən həkimə müraciət etməlidirlər".

# Əli Kərimlinin "izdihamlı mitinq" xülyası

*MÜBARİZ*

Özünü Azərbaycandakı sayı barmaqla sayılacaq qədər az olan "redikül müxalifət"in öndəgedəni sayan Əli Kərimlini müxtəlif baxış bucaqlarından təqdim etmək mümkündür. Əslində, artıq bir neçə onilliklər ki, eyni palçığı tapdalayan Əli Kərimlinin cəmiyyətimizdə bəlli mənfi obrazı formalaşıb. Söhbət bu simadan düşəndə siyasi prosesləri az-çox izləyən hər kəs onu bir vaxtlar sitayiş etdiyi Əbülfəz Elçibəyə xəyanət yolu tutaraq AXC-ni ələ keçirən, çiyindaşlarına həmişə arxadan zərbələr vuran, intriqalar yaradan, anti-milli açıqlamaları ilə xaricdəki azərbaycanafob dairələrin dəyirmanına su tökən, həmin dairələrdən aldığı qrantlar hesabına bahalı avtomobillərə sahiblənən, cangüdənlər saxlayan, oğlu Türkel Kərimliyə xaricdə dəbdəbəli həyat təmin edən birisi kimi tanıyır.

**Əli Kərimli üçün ən həssas məqam - sosial baza qıtlığı**

AXCP sədri Əli Kərimli həm də hədsiz dərəcədə xəyalpərəstdir. O, gecələr yatıb hansısa yuxular görür, gündüzlər isə yuxuların təsiri altında özünü sözün əsl mənasında xəyal plova qonaq edir. Sizcə, Əli Kərimlinin ən böyük xülyası nə ola bilər? Sualın cavabını tapmaq üçün çox da baş sındırmağa lüzum yoxdur. "Redikül müxalifət"in bu təkəbbürlü simasının ən böyük istəyi, heç şübhəsiz ki, elektorat, sosial baza ilə bağlıdır. Bəli, söhbət Əli Kərimli üçün ən həssa məqamdan gedir. Bir partiya rəhbəri məhz arxasında sosial dayaq olanda özünü güclü sanır və mövqeyini qətiyyətlə ortaya qoyur. Ancaq bu baxımdan Əli Kərimlinin "bəxti" gətrməyib. Onun çıxdığı tribuna Qənimət Zahidin və Sevinc Osmanqızının internet televiziyaları ilə məhdudlaşır. Əli Kərimlinin son bir neçə ildə cəmiyyətin hansısa bir kəsimi ilə görüşlərə qatıldığı, gənclərlə diskussiyalar apardığını xatırlamaq mümkün deyil. Bütövlükdə, cəmiyyət bir yana qalsın, AXCP sədri "redikül müxalifət" düşərgəsində də özünü digər təmsilçilərdən tamamailə izolə edib. Əli Kərimli özünü "redikül müxalifət"in hakim-mütləqi sanır və elə hesab edir ki, burada hər kəs onun mövqeyi ilə barışmalı, dediklərini təkrarlamalıdır. Elə bu səbəbdən də Əli Kərimli cəmiyyətdə olduğu kimi, "redikül müxalifət" düşərgəsində də tək-tənhadır, hamı ondan məsafə saxlamağa çalışır.

**AXCP yenidən qeydiyyat prosesini niyə autsayderlər sırasında keçdi?**

Əli Kərimlinin və onun partiyasının sosial dayaqdan məhrum qaldığını təsdiqləyən ən son olaya diqqət çəkək. Ölkəmizdə cari ilin əvvəlində qəbul olunan "Siyasi partiyalar haqqında" yeni Qanuna əsasən partiyalar yenidən qeydiyyatdan keçməlidirlər. Bu prosedur üçün partiyaların qarşısına 5 min üzv tələbi qoyulub. Əli Kərimli kimi iddialı birisinin rəhbərlik etdiyi partiya bu tələbi çox asanlıqla ödəməli idi. Lakin Əli Kərimli indiyədək AXCP üzvlərinin sayı ilə bağlı həmişə şişirdilmiş rəqəmlər səsləndirib. Yenidən qeydiyyat tələbi sabun köpüyünü partladtı və Əli Kərimlinin illüziyaları suya düşdü. Xatırladaq ki, Əli Kərimlinin partiyası yenidən qeydiyyata alınma prosesini, necə deyərlər, sürünə-sürünə autsayderlər sıasında keçməyə nail oldu. Təkcə belə bir məqamı vurğulamaq kifayətdir ki, AXCP-nin Ədliyyə Nazirliyinə təqdim etdiyi siyahıda 5315 nəfər üzvdən 2497 nəfər barədə məlumatlarda saxtakarlıqlar aşkarlandı. O cümlədən məlum oldu ki, 119 nəfər başqa partiyaların üzvləridir, 59 şəxs barədə məlumatlar təkrarlanıb, 609 nəfər isə ümumiyyətlə, AXCP üzvü deyil... Bunlar ondan xəbər verir ki, Əli Kərrimli bütün siyasi çabalamalarını məhz saxtakarlıqlar üzərindən qurur. Sonradan AXCP yenidən qeydiyyat prosesindən kənarda qalmamaq naminə çox tər tökmək məcburiyyətində qaldı.

**Əli Kərimlinin mitinq üzqarası**

Əli Kərimli həmişə olduğu kimi yenə də "izdihamlı mitinq" nostaljisi ilə yaşayır. Soruşan gərəkdir: Rəhbərlik etdiyi partiyada özü və yaxın qohum-əqrabasından, dost-tanışından başqa heç kim olmadığı halda "izdihamlı mitinq" Əli Kərimlinin harasına yaraşır? Əli Kərimli mitinqlərin keçirilməsi üçün şərait olmamasından giley-güzar edir.

Yenə də yalan, yenə də boşboğazlıq. Burada Əli Kərimlinin yadına bir neçə il bundan əvvəl "Məhsul " stadionunda təşkil etdikləri mitinqləri salmaq istərdik. Nəqliyyat axınının, gediş-gəlişin gur olduğu bir məkanda Əli Kərimlinin "izdihamlı mitinq" keçirməsinə heç kim mane olmurdu. Həmin mitinqlərin keçirilməsinə müvafiq qaydada icazə verilmişdi. O başqa məsələdir ki, Əli Kərimlinin mitinq çağırışları heç kimi maraqlandırmırdı və stadionda yel vurub yengələr oynayırdı. Yeri gəlmişkən, "redikül müxalifət"in "Məhsul"da düzənlədiyi mitinqlərdə Azərbaycanın müqəddəs aylı-ulduzlu üçrəngli bayrağı ayaqlar altına atılıb tapdandı və buna görə Əli Kərimlinin heç tükü də tərpənmədi. Bu da AXCP sədrinin "müxalifətçiliyinin" başqa bir nişanəsi, daha dəqiq desək, üzqarasıdır...

# Araik "getdi", Artur "gəldi"...

## Toplananların yeri dəyişəndə cəm dəyişmir...

Beynəlxalq aləmdə, eləcə də Ermənistanın özü tərəfindən Azərbaycanın suveren və ayrılmaz hissəsi kimi tanınan Qarabağda yerləşən separatçı rejimin qondarma mahiyyəti yenidən etiraf olunmaqdadır. Vətən müharibəsindən sonrakı dövrdə Fransa dövləti və başqa ermənipərəst mərkəzlər tərəfindən dəstəklənən qondarma rejimin bəzi hallarda "hüquqi subyekt" kimi qələmə verilməsi cəhdləri nümayiş etdirilir, onların danışıqlar prosesinə daxil edilməsi yönündə səylər intensivləşdirilirdi. Amma Azərbaycan dövlətinin qəti və dəyişməz mövqeyi bunun qarşısını aldı - ölkəmizin suveren əraziləri olan Qarabağ heç bir danışıqların müzakirə predmeti ola bilməz. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü detallı şəkildə tanıması, aprelin 23-də Laçın dövlət sərhəd buraxılış məntəqəsinin qurulması və fəaliyyətə başlaması bu qətiyyətin əyani nümayişinə çevrildi.

### Siyasi manipulyasiyanın yeni "növü"...

Artıq əlləri hər yerdən üzülən separatçılar və onların dəstəkçiləri bir müddət idi ki, yeni siyasi manipulyasiyaya start vermişdilər. Azərbaycanın atdığı hüquqi addımları siyasiləşdirməyə çalışan qondarma rejim sonunda anladı ki, bütün səylər boşunadı - Azərbaycan öz mövqeyindən geri çəkilmək fikrində deyil. BMT TŞ müstəvisində aparılan müzakirələr isə məsələyə birdəfəlik nöqtə qoydu - nəticədə qondarma rejimin başçısı Araik Arutyunyan "vəzifəsindən" "istefa" verdi. Bu "istefa"nı da siyasi müstəvidə "izah etməyə çalışan" bir qisim "xarici ekspertlər" bunu "qan dəyişikliyi", "yeni siyasi situasiya" və ya "dəstəkçi qrupun komplektləşdirmə siyasəti" kimi qələmə vermək niyyətində idilər. Hətta qondarma rejimin heç bir hüquqi statusu olmayan qondarma "seçkiləri"ni də bu yöndə izah etmək istəyənlər yeni separatçıbaşı Samvel Şahramanyanı "fərqli donda" təqdim etməyə çalışırdı - onun Araik Arutyuyandan "fərqli" olduğunu, "daha ciddi mahiyyət" daşıdığını, xarici əlaqələrinin daha "bərk" olduğunu deyirdilər. Amma son günlərdə Qarabağdan Ermənistana olan əhali axını göstərdi ki, nəinki Qarabağdakı erməni əsilli şəxslərin, hətta qondarma rejimin özünün təbliğatçıları, din xadimləri belə Şahramanyana inanmır, ona güvənmir.

### Araikdən Artura...

Şahramanyanın yeni "sərgüzəşti" isə daha "lətifəvaridir". Belə ki, qondarma rejimin başçısı Samvel Şahramanyan sentyabrın 18-də Artur İvanoviç Arutyunyanın "dövlət naziri" təyin edilməsi haqqında "sərəncam" imzalayıb. Bu barədə erməni mediası məlumat yayıb. Artur Arutyunyan isə Qarabağdakı xunta rejiminin keçmiş başçısı Araik Arutyunyanın qardaşıdır. Qondarma "parlament"in "Azad vətən" "partiyası"ndan olan fraksiyasının rəhbəri Artur Arutyunyan Azərbaycan əleyhinə sərsəm çıxışları ilə son vaxtlar xeyli populyarlaşıb.





Bu fakt bir daha qondarma separatçı rejimin bəzi xarici güclərin əlində müti və oyuncaq olduğunu təsdiqləyir. Eyni zamanda, bu kimi mənasız, məntiqsiz "yerdəyişmələrin", gülünc "təyinatların" heç bir işə yaramayacağı, nəticəyə heç cür təsir etməyəcəyi ilk baxışdan aydın şəkildə görünür. Riyazi dillə desək, toplananların yerini dəyişdikdə "cəm" dəyişmir. O ki qala, toplananların hər iki tərəfi sıfır ola...

### Ən effektiv yol-reinteqrasiya

Bu gün Azərbaycan regionda yeni geosiyasi reallıqlar formalaşdırıb. Həm siyasi, həm də hərbi sferadakı üstünlüklərini prosesə uğurla transformasiya edən ölkəmiz bölgədə tənzimləyici rolu üstlənməklə yanaşı, bütövlükdə, prosesə nəzarət edir - regionla bağlı verilən qərarlarda da mütləq şəkildə Azərbaycanın milli maraqları nəzərə alınır. Bu fakt vasitəçilər tərəfindən də xüsusi vurğulanır. Yaranan situasiyaya nəzər saldıqda bəlli olur ki, Qarabağdakı erməni əsilli vətəndaşlar üçün yeganə və ən effektiv yol reinteqrasiyadır. Çünki istər sosial şəbəkələrin erməni seqmenti, istərsə də erməni əsilli siyasi ekspertlər də etiraf edirlər ki, Azərbaycanın mövqeyi dəyişməzdir. Hətta onlar ötən 30 il ərzində Azərbaycanın öz mövqeyindən bir addım geri çəkilmədiklərini bildirirlər.

Təbii ki, qondarma rejimin qeyri-adekvat davranışları Azərbaycanın maraqlarına uyğun deyil və istənilmədiyi halda belə antiterror məsələsini aktuallışdırır. Sadəcə sülh prosesinə sadiqlik nümayiş etdirən Azərbaycan BMT nizamnaməsinin 51-ci maddəsi ilə tanınan hüququndan hələlik istifadə etmir. Bəlli olduğu kimi, BMT nizamnaməsinin 51-ci maddəsində göstərilir ki, quruma üzv olan hər bir ölkə öz ərazi bütövlüyünü bərpa etmək hüququna malikdir. Azərbaycan da BMT üzvü olaraq tam bu hüquqa malikdir. Və ən əsası Azərbaycanın buna həm hərbi gücü, həm də qətiyyəti çatır.

*P.İSMAYILOV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# “Xınalıq və Köç yolu mədəni landşaftı”



## UNESCO-nun Ümumdünya İrs Siyahısında

## Ermənistan Azıx və Tağlar mağaralarının UNESCO-ya daxil edilməsinə qarşı çıxıb

***Günel ABBAS***

Dünya Mədəniyyət Mirasları siyahısı UNESCO-nun Dünya mirasları Komitəsi tərəfindən təyin olunmuş və yerləşdikləri ölkənin dövlət orqanları tərəfindən qorunması zəmanət edilmiş, bütün dünya üçün əhəmiyyətli bir dəyər daşıdığı qəbul edilən təbii və mədəni abidələrin siyahısıdır.

Dünya Mədəniyyət Mirasları siyahısının yaradılmasında məqsəd, bütün insanlara məxsus olan dəyərlərin qorunmasında beynəlxalq əməkdaşlığı həyata keçirməkdir. Nizamlı olaraq yenilənən siyahıya 2004-cü ildən etibarən 134 ölkəyə aid 788 abidə daxil edilmişdir. Bunların 617-si mədəni, 154-ü təbii, 23-ü isə mədəni və təbii abidələrdir. 1972-ci ildə UNESCO 38 maddədən ibarət qətnaməni qəbul etdi. Qətnamədə hamı tərəfindən ümumdünya irsinin bir nəfər kimi qorumalı olduğu qeyd edilirdi. Qətnaməyə 175 dövlət qoşulmuşdur. Bunlardan 21 dövlət Ümumdünya irsinin idarə heyətinin üzvüdür.

Azərbaycanın bir sıra tarixi abidələri və mədəni irsi də UNESCO tərəfindən qorunur. Yeri gəlmişkən, sentyabrın 18-də Azərbaycanın “Xınalıq və Köç yolu mədəni landşaftı” adlı nominasiya ərazisi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu haqda qərar 2023-cü ilin 18 sentyabr tarixində UNESCO-





nun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında qəbul edilib.

Dövlət Turizm Agentliyi tərəfindən hazırlanan nominasiyaya əsasən Ümumdünya İrs Ərazisi Xınalıq kəndi də daxil olmaqla, yerli əhalinin istifadə etdiyi ətraf yaylaq (Quba və Qusar) və Mərkəzi Aran bölgəsinə düşən qışlaq ərazilərini (Abşeron və Hacıqabul), həmçinin onların arasında uzunluğu 200 km-dən çox olan tarixi Köç yolunu (Quba-Şamaxı-Qobustan) əhatə edir.

UNESCO-ya təqdim edilən sənədin əsasını Xınalığın köçəri mədəniyyəti təşkil edir. Əks etdirdiyi ümumbəşəri dəyərlər nəzərə alınmaqla, unikallığı ilə seçilən bu zəngin irs “Xınalıq və Köç yolu mədəni landşaftı” adlı nominasiya sənədi 2021-ci ildə Ümumdünya İrs Komitəsinə təqdim edilib.

UNESCO-nun Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev nominasiya sənədini dəstəkləyən hər kəsə təşəkkürünü bildirib, bu sənəddəki köç yolunun nümunəvi tarixi-iqtisadi model kimi təkcə Azərbaycanın deyil, bütün dünya irsinin nadir nümunələrindən olduğunu qeyd edib.

Fuad Nağıyev ölkəmizin maddi və qeyri-maddi irsinin qorunub saxlanması sahəsinə göstərilən daimi diqqət, qayğı və dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edərək məhz bu dəstək sayəsində Xınalıq və Köç yolu ənənələrinin Ümumdünya İrs Ərazisinə salınmasının mümkün olduğunu bildirib.

UNESCO-nun ümumdünya İrs Siyahısına daxil edilən İrs Ərazisi 6 inzibati rayonun ərazisindən keçən ümumilikdə 44829,41 hektar (45 min hektara yaxın) İrs Ərazisindən və müvafiq olaraq 109392,78 hektar (109 min hektardan çox) Bufer Zonadan ibarət olan böyük bir mədəni landşaftı əhatə edir.

Dünya İrs Siyahısına salınmış ərazidə köçərilərə aid qədim tarixi qəbiristanlıqlar, müqəddəs yerlər, pirlər, tarixi körpülər, bulaqlar kimi maddi mədəniyyət nümunələri var.

İlk dəfə olaraq tamamilə milli ekspertlər tərəfindən hazırlanan “Xınalıq və Köç yolu mədəni landşaftı” adlı nominasiya Dünya İrsinin 3-cü (III) və 5-ci (V) meyarları ilə qeydə alınıb. 3-cü meyar Xınalıq icmasının tarixən köçəri heyvandarlıqla məşğul olduğu vertikal köçəri mədəniyyətinin, 5-ci meyar isə insan-təbiət əlaqələrinin tarazlığı, çətin iqlim şəraitində eko-sosial münasibətlər sisteminin inkişafı və təbiət resurslarından dayanıqlı istifadənin müstəsna nümunəsi kimi təqdim olunub.

Azərbaycanın mədəni irsi üçün əhəmiyyətini, köç yolunun yerləşdiyi ərazinin qorunması, vahid idarəetmə modelinin yaradılması və burada məsuliyyətli turizmin inkişaf etdirilməsi məqsədilə 4 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Xınalıq və Köç Yolu” Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu yaradılıb.

Beləliklə, “Xınalıq və Köç yolu” Azərbaycanda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən dördüncü mədəni irs ərazisi oldu. Bundan əvvəl Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə İçərişəhər, Qobustan Qaya Sənəti Mədəni Landşaftı, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi də Ümumdünya İrs Siyahısına daxil edilib.

Qeyd edək ki, bir gün öncə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında Hirkan meşələri Azərbaycanın ilk təbiət irsi ərazisi olaraq UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

**Ermənistan ərazi iddialarını davam etdirir**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə “X” sosial şəbəkə hesabında bu barədə paylaşım edib. O bildirib ki, UNESCO-nun Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında Ermənistan Azərbaycanın Azıx və Tağlar mağaralarının Dünya İrsi Siyahısına daxil edilməsinə qarşı çıxıb. Bu, Ermənistanın ərazi iddialarının davam etdiyini göstərir, - deyə paylaşımda qeyd olunub.

***İdman***

## Azərbaycan Cüdo Federasiyasının rəsmi maskotu bəlli olub




Azərbaycan Cüdo Federasiyası rəsmi maskotunu təqdim edib.

Federasiyanın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, LEDO adlı maskot özündə zərifliyi, ildırım sürətini, misilsiz gücü və ağılı ehtiva edir.

Maskot ilk dəfə sentyabrın 22-dən 24-dək Milli Gimnastika Arenasında keçiriləcək Böyük Dəbilqə turnirində nümayiş olunacaq.

## Boksçularımız Rusiyaya yollanıblar



İyirmi iki yaşadək kişi və qadın boksçulardan ibarət Azərbaycan milli komandaları Rusiyaya yollanıblar.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yığmalar 21- 25 sentyabrda Anapada Nikolay Pavlyukovun xatirəsinə həsr olunan beynəlxalq turnirə qatılacaq.

Kişi boksçular yarışda məşqçilər Elbrus Rzayev və Ravşan Xocayevin rəhbərliyi altında mübarizə aparacaqlar. Rusiyada ölkəmizi Tural Sarıyev (48 kiloqram), Həsən Məlikov (51 kiloqram), Nicat Hüseynov (54 kiloqram), Əzrək Bəbirov (57 kiloqram), Maqsud Xasmetov (60 kiloqram), Cəlal Qurbanov (63,5 kiloqram), İlqar Salahov (67 kiloqram), Rəşid Həsənov (71 kiloqram), Murad Allahverdiyev (80 kiloqram) və Rəşid Məmmədov (86 kiloqram) təmsil edəcəklər.

Qadınlardan ibarət yığmanın baş məşqçisi Yadigar Məmmədov isə turnirdə Mehparə Məmmədova (48 kiloqram), Marjona Savriyeva (50 kiloqram), Zeynəb Rəhimova (54 kiloqram) və Lalə Namazlını (63 kiloqram) sınayacaq.

Azərbaycanı yarışda beynəlxalq dərəcəli referi Emil Qurbanəliyev də təmsil edəcək.

Bu gün Anapaya yollanan yığmalar sentyabrın 26-da Bakıya qayıdacaqlar.

Qeyd edək ki, yarış U-22-lər arasında Avropa çempionatına hazırlıq xarakteri daşıyır.

## “Qarabağ”- “Molde” oyununun hakimləri açıqlanıb




UEFA Avropa Liqasında mübarizə aparan “Qarabağ”ın turnirin qrup mərhələsində Norveçin “Mölde” klubuna qarşı keçirəcəyi ev oyununu idarə edəcək hakimlər açıqlanıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, qarşılaşmanı Şotlandiyadan olan hakimlər briqadası idarə edəcək.

Baş hakim John Beatona Daniel McFarlane, Douglas Potter yardım edəcəklər.

Dördüncü hakim funksiyasını isə Matthyu MacDermid yerinə yetirəcək.

Qeyd edək ki, sentyabrın 21-də Tofiq Bəhramov adına Respublika Stadionunda baş tutacaq görüş saat 20:45-də başlayacaq.

## Maqomedov: Hədəfim Avropa çempionatında və Olimpiadada uğur qazanmaqdır

Neçə ildir məşq edirdik, hazırlaşırdıq. Bu yerdə olmağıma görə atama təşəkkür edirəm. Azərbaycana, federasiya rəhbərliyinə, məşqçilər heyətinə minnətdarlığımı bildirirəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında finala yüksələrək “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya əldə edən Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedov (97 kiloqram) deyib.

Yarımfinalda Gibi Matçaraşvilini məğlub edən idmançı gürcüstanlı rəqibindən revanş aldığını bildirib: “Bu gün Allah bizim tərəfimizdə idi. Daha əvvəl Gürcüstan güləşçisinə iki dəfə məğlub olmuşdum. Burada revanş aldım.

Finaldakı rəqibi Axmed Tajudinov (Bəhreyn) barədə də danışan Maqomedxan Maqomedov əlavə edib: “Hər ikimiz bir-birimiz üçün sürprizik. İndiyədək heç vaxt qarşılaşmamışıq. Çox gənc və yaxşı güləşçidir. Kayl Snaydera tam üstünlüklə qalib gəldi. Abdulrəşid Sadullayevi məğlub etdi. Ancaq Sadullayevin zədəsi var idi, yaxşı formada deyildi. Açığı, finalda Abdulrəşidlə qarşılaşmaq istərdim. Daha öncə dəfələrlə turnirlərdə güləşmişik və ona uduzmuşam. Ancaq bu dəfə onunla qarşılaşmaq qismət olmadı”.

Güləşçimiz bütün idmançıların arzusunun Olimpiya çempionluğu olduğunu vurğulayaraq bildirib: “Biz də buna çalışacağıq. Hədəfimiz əvvəlcə Avropa çempionatında, daha sonra isə Olimpiadada uğur qazanmaqdır”.









## “Nar”dan əla fürsət: Köhnə smartfonunu sərfəli şərtlərlə sat!

İndi siz köhnə smartfonunuzu “Nar” mağazalarında sərfəli qiymətə və rahat şəkildə sata bilərsiniz. “Nar” mağazasında telefonunuzun dəyərləndirilməsi xüsusi tətbiq vasitəsilə, şəffaf və sürətli aparılır.

Tətbiq bir çox parametrlər üzrə smartfonunuzu yoxlayır və müvafiq qiyməti təyin edir. Smartfonunuzu elə yerindəcə təyin olunmuş qiymətə təhvil verə və ödənişinizi dərhal əldə edə bilərsiniz. Üstəlik, xidmətdən yararlanan hər bir “Nar” abunəçisi 30GB-dək internet bonusu əldə edəcək.

Bu xidmət Türkiyənin “EasyCep” şirkətilə “Nar”ın əməkdaşlığı çərçivəsində həyata keçirilir. Beləliklə, “Nar” Azərbaycanda işlənmiş telefonların alışını rəsmi şəkildə həyata keçirməyə başlayan ilk mobil operator oldu.

Telefonunuzu sərfəli şəkildə satmaq üçün “Nar”ın Bakı, Sumqayıt və Xırdalan şəhərlərində yerləşən 19 eksklüziv diler mağazalarından birinə yaxınlaşmaq kifayətdir.

Qeyd edək, “EasyCep” Türkiyənin ən böyük yenilənmiş elektronik cihaz satış şəbəkəsidir. Şirkət mobil telefon, planşet, noutbuk və bənzər cihazların sahibindən satın alaraq yenilənmiş şəkildə və zəmanətlə satışını həyata keçirir.

“Nar” və “EasyCep” şirkətləri arasında əməkdaşlıq müştərilərinə müxtəlif xidmətləri bir mərkəzdən göstərmək və üstün müştəri təcrübəsini təmin etmək məqsədi daşıyır.

“Nar” hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidməti göstərir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkənin lider mobil operatorudur. Mobil operator müştəri yönümlü strategiyaya sadiqdir və sərfəli qiymətə əla xidmət təklif edir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 7374
Sifariş: 2420
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas